*Əbdülhəmid əbu Süleyman*

# İSLAM
## İQTİSADİYYATI NƏZƏRİYYƏSİ

***(Tövhid və qardaşlıq iqtisadiyyatı: fəlsəfə, müasir kontekstdə məfhumlar və təkliflər)***



# (I-II)

*Əbdülhəmid əbu Süleyman*

# İSLAM
## İQTİSADİYYATI NƏZƏRİYYƏSİ

***(Tövhid və qardaşlıq iqtisadiyyatı: fəlsəfə, müasir kontekstdə məfhumlar və təkliflər)***

# (I-II)

Beynəlxalq İslam Fikri İnstitutu

İDRAK

Bakı - 2017

© Beynəlxalq İslam Fikri İnstitutu, 2017
© "İdrak" İctimai Birliyi, 2017

The International Institute of Islamic Thought (USA)
P.O. Box 669, 500 Grove St., Suite 200, Herndon, VA 20170, USA
www.iiit.org

The International Institute of Islamic Thought (UK)
P.O. Box 126, Richmond, Surrey, TW9 2UD, UK
www.iiituk.com

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

ISBN

Tərcüməçi, redaktor və şərhlərin müəllifi:
Fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov

Bədii və texniki tərtibat:
Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur

Digər nəşrlərimiz:

# İslam iqtisadiyyatı nəzəriyyəsi (I)

*(Tövhid və qardaşlıq iqtisadiyyatı: fəlsəfə, müasir kontekstdə məfhumlar və təkliflər)*

# Mündəricat


1. Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6
*a. "Nəsx" iddialarının əsassızlığı . . . . . . . . . . . . . . . . . . 9*
*b. Zaman və məkan amili . . . . . . . . . . . . . . . . . . . . . 11*
*c. Konseptual-professional dərk və izahın zəruriliyi . . . . . . . 13*
2. İslam iqtisadiyyatı: əsasları və prinsipləri. . . . . . . . . . . 20
*2.1. Tövhid . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 20*
*2.2. Varislik və qardaşlıq. . . . . . . . . . . . . . . . . . . . . 24*
*2.3. İslamın xüsusi mülkiyyət anlayışı . . . . . . . . . . . . . . 27*
*2.4. Gəlirlərin müxtəlifliyi zəhmət və əməkdən asılıdır . . . . . 33*
*2.4.1. Torpağı icarədə faiz və kapital gəlirləri . . . . . . . . . . 34*
*a. Torpağın icarəyə verilməsinin qadağan edilməsi . . . . . . . 34*
*b. Yardarlığın qadağan edilməsi . . . . . . . . . . . . . . . . . 36*
*c. Pul qarşılığında torpağı icarə götürmək olar. . . . . . . . . . 38*
*ç. Faiz haqqında ayələr. . . . . . . . . . . . . . . . . . . . . . 40*
*2.5. Cəmiyyət xüsusi mülkiyyəti yenidən bölüşdürmək hüququna sahibdir . . . . . . . . . . . . . . . . . . . . . . 47*
*2.6. Vərəsəlik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52*
*2.7. İstehsal amillərinin beynəlxalq mübadiləsi . . . . . . . . . 53*
*Əlavə 1.* Təbii resursların bərabər bölüşdürülməsi haqqında. . . . . . . . . . . . . . . . . . 57
*Əlavə 2.* Bölüşdürməyə dair qeydlər . . . . . . . . . . . . . . 61
*a. Bölüşdürmənin vacib şərtləri . . . . . . . . . . . . . . . . . 61*
*b. Elmi kəşflər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 62*
*c. Məvaciblər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 63*

# 1. Ön söz

Bu məqalə 1960-cı ildə Qahirədə nəşr olunmuş "İslam iqtisadiyyatı nəzəriyyəsi: fəlsəfə və müasir vasitələr" adlı kitabın xülasəsindən ibarətdir. Həm kitabda, həm də məqalədə islam nöqteyi-nəzərinin müsəlman cəmiyyətinin iqtisadi münasibətlərini necə tənzimləməsi mövzusuna toxunulmuşdur. Bu məqsədlə məqalədə islamın iki başlıca mənbəyinə: Quran və hədislərə müraciət edilmişdir.

Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yaşadığı dövrün sosial-iqtisadi mənzərəsinə nəzər saldıqda görürük ki, o, islam nöqteyi-nəzəri və dünyagörüşünü yürütdüyü iqtisadi kurslarla həyata keçirə bilmişdi. Bu iqtisadi kurslar islam nöqteyi-nəzərini və bu dinin məqsədlərini izah edirdi. Əgər həmin nöqteyi-nəzər və məqsədlər doğru şəkildə öyrənilərsə, onları müasir iqtisadi həyata tətbiq etmək mümkün olacaqdır.

İslam dünyagörüşü və nöqteyi-nəzərini, dinin məqsədlərini obyektiv şəkildə öyrənmədən Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* təsis etdiyi iqtisadi modeldən fərqli modellərin tətbiq olunduğu müasir cəmiyyətlərdə islamın əxlaq təlimlərinə məna qazandırmaq çox çətindir. Bir neçə əsrdir ki, tədqiqatçılar yaşadığı dövrdə Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yürütdüyü iqtisadi kursun mahiyyətini öyrənməyi qarşısına məqsəd qoymayan hərfi metoddan istifadə edirlər. Hərfi yanaşma üsulunun uğur qazanması mümkün deyildir, odur

ki islam nöqteyi-nəzərini cəmiyyətimizə uyğun şəkildə izah edə bilməmişdi.

İslama dair müasir tədqiqatlarda analitik-sistematik və metodoloji üsul ciddi şəkildə tətbiq olunmur. Bu tədqiqatlarda əsas diqqət xırda məsələlərə verilir, müasir iqtisadiyyatın metod və anlayışlarına münasibətdə kompromisə gedilir, bank faizləri başlıca müzakirə mövzusu seçilir. Müəlliflər əsasən faiz mövzusuna toxunurlar. Bəzi hallarda elə güman edirlər ki, faizin qarşısını alıb eyni iqtisadi gəlir və stimulu təmin etmək üçün yeni alternativlər tapmağı bacarsalar, problemi həll etmiş olacaqlar. Yəni, bu üsulla müasir kapitalizm cəmiyyəti və sisteminə "islam" səciyyəviliyi kəsb etdirmək mümkün olacaqdır.

Amma bu iqtisadçılar başa düşmürlər ki, faiz kapitalizmin vasitəsi və nəticəsi olaraq mövcuddur, onun səbəbi deyildir. Odur ki faizin qarşısını almaq üçün islam adına edilən bütün cəhdlər müsəlman cəmiyyətlərində sələmçilik probleminin həlli ilə nəticələnməyəcəkdir. Çünki islam dünyasına xas yeni sistem və həyat tərzi, reallığa uyğun islam nöqteyi-nəzəri və nümunəsi təqdim edilmir, – müəyyən problemlərin həlli və ya redaktəsi üçün edilən bütün cəhdlərin uğursuzluğa uğramasının səbəbi olaraq bunu göstərmək mümkündür.

İndiki dövrdə bütün müsəlman ölkələrində fərdiyyətçi kapitalizm ideologiyası hökm sürür. Bu səbəbdən islama əsaslanan istiqamət və ideyaların natamam tətbiqi istənilən nəticəni vermir. Düzgün alternativ təqdim etmək və ya ədalətli sosial islahatlar aparmaq işində

kredit faizlərini digər gəlir formaları ilə əvəzləmək cəhdləri uğurlu alınmır.

Müqavilələrdəki faizlərə aid terminləri bir kənara qoysaq, onda möhlətli ödənişin olduğu satışlarda (hissə-hissə ödəməli satış) ödədiyimiz qiymət və faizlərə yenidən iqtisadi baxımdan nəzər salmış olacağıq. Məhz bu vaxt islam iqtisadiyyatı anlayışlarının natamam tətbiqindəki problem üzə çıxacaqdır.

İqtisadi nöqteyi-nəzərdən, pul almaq əmtəə almaqdan daha münasibdir. Çünki pulda dinamiklik və dəyişkənlik vardır. Amma biz müasir islam hüququnda görürük ki, hər hansı bir əmtəəni möhlətli (hissə-hissə) ödənişlə satmaq halal olduğu halda, kredit götürmək və məbləği faiz olaraq ödəmək – hətta hissə-hissə satmağın xərcindən az olsa da – haramdır. Hər iki vəziyyətdə vaxtın (müddətin) dəyəri (qiyməti) öz əksini tapıb. Puldan müxtəlif formalarda istifadə etmək mümkün olduğu halda, əmtəədə başqa cürdür. Qəribədir ki, şəriətdə bu cür deyildir. Belə ziddiyyətli situasiyalarda konseptual konkretlik və aydınlıq müşahidə etmək çətindir.

Müsəlman ölkələrində iqtisadi həyata və münasibətlərə dair islam nöqteyi-nəzəri yenidən öyrənilməlidir. Bu elə bir nöqteyi-nəzərdir ki, bütün problemləri kompleks şəkildə izah edir, ümumi anlayışları digər gizli amillərlə vəhdətdə götürür. Bu isə o deməkdir ki, müasir islam nizamını təsis etməyə qadir yeni düşüncə tərzi meydana çıxacaqdır. Məqaləmizdə qarşıya qoyulan məqsəd də elə budur.

Hər şeydən əvvəl, məqalədə müraciət olunan metodologiya ilə əlaqəli üç problemə toxunmaq istərdik. Metodologiyada Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* sünnəsinə münasibətin xüsusiyyətləri haqında söz açılmışdır. Həmin üç problem aşağıdakılardır:

## a. "Nəsx" iddialarının əsassızlığı

Güman olunan ziddiyyətləri aradan qaldırmaq üçün Quran və Sünnənin təfsirində (izahında) başlıca vasitə olaraq qəbul edilmiş klassik "nəsx"[1] iddiasını qəbul etmirik. Fikrimizi izah etmək məqsədilə İbn Həzmdən aşağıdakıları iqtibas gətirmişik.

Böyük fəqih əndəlüslü İbn Həzm torpaq sahələrinin icarəyə götürülməsi və "müzariə" (yardarlıq) ilə[2] əlaqəli müxtəlif hədisləri kompleks şəkildə araşdırmış və belə bir məntiqli nəticəyə gəlmişdi ki, yardarlıq haramdır. Daha sonra İbn Həzmin qarşısına Xeybərlə əlaqəli bir hədis çıxmışdı. Hədisdə deyilir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Xeybər yəhudiləri ilə yığılan məhsulda ortaq imiş. Bu vəziyyətin Peyğəmbərin *(Ona Allahın xeyir-duası*

---

[1] Nəsx. Hərf. ləğv etmə, köçürmə. Quranın bir ayəsinin və ya bir hədisin digər ayəni, yaxud hədisi qüvvədən salması. Hüquq ədəbiyyatında göstərilir ki, sonradan meydana çıxmış dini mətnlərlə (dəlillərlə) əvvəl təsis edilmiş hökmün qüvvədən salınması "nəxs" adlanır. Ənənəvi islam terminologiyasında qüvvədən salan ayələr və hədislər "nasix", salınan ayələr və hədislər isə "mənsux" adlandırılmışdır – ***tərcüməçinin qeydi.***

[2] İcarəyə götürülmüş torpaqdan yığılan məhsulun yarısını icarə haqqı olaraq torpaq sahibinə vermə və bu icarə üsulunun özü – ***tərcüməçinin qeydi.***

*və salamı olsun!)* son icraatlarından biri olduğunu göstərən həmin hədisə istinadən İbn Həzm qərara gəlmişdi ki, sözügedən hədis Mədinə cəmiyyətində yardarlığı haram edən əvvəlki hədisləri "nəsx" etdiyindən yardarlıq halal və icazəlidir.

İqtisadiyyata dair biliklərimiz çərçivəsində hansı nəticələrə gələcəyimizi müəyyən etmək üçün Xeybərlə əlaqəli hədisi diqqətlə nəzərdən keçirək. İbn Ömərə *(Allah ondan razı qalsın!)* istinadən İmam Müslim aşağıdakıları rəvayət etmişdir:

"...Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Xeybərə çatdıqda yəhudiləri oradan çıxarmaq istədi. (Peyğəmbər) oraya gəldiyi vaxt torpaq Allahın, peyğəmbəri və müsəlmanların idi. Odur ki (Peyğəmbər) yəhudiləri oradan çıxarmaq qərarına gəlmişdi. Yəhudilər Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* xahiş etdilər ki, onları torpaqlarında saxlasın, onlar da (əkinçilik) işlərini davam etdirsinlər, müsəlmanlara da məhsulun yarısını versinlər. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* onlara dedi: Sizi burada istədiyimiz müddətə qədər saxlayırıq". Yəhudilər bu ərazilərdə Ömər *(Allah ondan razı qalsın!)* onları oradan çıxaranadək qaldılar".

İmam Müslim rəvayət edir ki, İbn Ömər *(Allah ondan razı qalsın!)* demişdir:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Xeybər yəhudilərinə işlədib (məhsul götürsünlər deyə) Xeybər xurmalıqlarını və ərazilərini verdi. (Əvəzində) əldə etdikləri məhsulun yarısı Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* çatacaqdı".

Yuxarıdakı iki hədisdən məlum olur ki, yardarlıq iki müsəlman tərəf arasında baş verməmişdi (yardarlıqla əlaqəli digər hədislərdə söhbət iki müsəlman tərəfdən gedir); əksinə, İslam dövlətinin başçısı Peyğəmbərlə yad və düşmən qrup – Xeybər yəhudiləri arasında baş tutmuşdu. Məlumdur ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* islam dövləti və müsəlman cəmiyyəti ilə əcnəbi qrup və ya cəmiyyət arasında müqavilə bağlamışdı. Yəni, xeybərlilərlə – yəhudilərlə yardarlığı qəbul etmişdi. Yəhudilər bu yolla torpaqdan istifadə etmişdilər. Torpaq isə İslam dövlətinin mülkiyyəti idi və istədiyi vaxt onu yəhudilərdən geri almaq olardı. Dövlət yəhudilərdən əldə edilən məhsulun yarısını alırdı.

Deməli, bu hədislər məlum problemlə əkslik təşkil etmir. Xeybər hədisi beynəlxalq ticarət və iqtisadiyyat məsələsi ilə əlaqəlidir. Başqa hədisdə isə yerli ticarət və iqtisadiyyat məsələsinə toxunulub. Bu iki hədis məlum problemlə əlaqədar olmadığından bu o deməkdir ki, məsələdə aldadıcı ziddiyyət vardır.

## *b. Zaman və məkan amili*

Metodologiyamıza görə, bir situasiya ilə əlaqəli üsulları, şəraiti digər situasiyaların fonunda elmi surətdə tədqiq etmək çox mühümdür.

Otlaq ərazilərə və onların icarəyə verilməsinə dair müxtəlif hədisləri tədqiq etdikdə görürük ki, bu hədislər müxtəlif şeylərdən bəhs edir. Və bu şeylər müxtəlif məqsədlərin həyata keçirilməsinə xidmət edir, fərqli-fərqli qaydalar təsis edir. Hər bir hədisin ehtiva etdi-

yi problemləri diqqətlə nəzərdən keçirməsək, tələsik o qərara gələcəyik ki, hədislərdə ziddiyyət vardır, deməli, sonrakı hədislər əvvəlki hədisləri qüvvədən salmışdır. Təəssüf ki, mömin və dürüst insan bəzən problemlərdən yaxa qurtarmaq üçün asan yola – "nəsx"ə müraciət edir. Aşağıdakı hədislərdən bunu görmək mümkündür. Hədisləri İmam Əbu Davud rəvayət etmişdir.

Cabir ibn Abdullah *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

"Kimin torpağı varsa, əkib becərsin. Yox, əkməyi bacarmazsa və buna gücü çatmazsa, torpağı müsəlman qardaşına icarə olmadan versin".

Cabir ibn Abdullah *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* belə dediyini eşidib:

"Kim yardarlıqdan əl çəkməzsə, Allah və peyğəmbəri ilə savaşa hazır olsun".

Rəvayət olunur ki, Sə`d ibn əbu Vəqqas demişdir:

"Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dövründə torpaqları arx kənarındakı və ondakı su ilə suvarılan əkin müqabilində icarəyə verirdik. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bunu bizə qadağan etdi, amma ona da icazə verdi ki, torpağı qızıl və ya gümüş müqabilində icarəyə verə bilərik".

Fikir verin: Cabir ibn Abdullahın rəvayət etdiyi iki hədisdə Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* münasibət bildirdiyi torpaq sahəsinin növü göstərilməyib. Amma Sə`d ibn əbu Vəqqasın rəvayət etdiyi hədisdə söhbət süni suvarma kanallarının olduğu torpaq sahələrindən gedir.

Deməli, bu hədislər iki növ torpaq sahəsi ilə əlaqədardır: 1) əl əməyi və kapitaldan istifadə edilən torpaq sahələri; 2) xam (əl dəyməmiş) torpaqlar. Fəqihlər ikinci növ torpaqları "asan", "təbii vəziyyətində olan" torpaqlar adlandırmışlar. Erkən dövrü müsəlman hüquqşünasları: Əta, Məkhul, Mücahid, Həsən əl-Bəsri və başqaları situasiya və mövcud vəziyyət (şərait) məsələsini, yaxud məkan və zaman amilini nəzərdən qaçırmadıqları üçün bu nəticəyə gəlmişdilər ki, xam torpaqları pul müqabilində və ya başqa yollarla icarəyə vermək olmaz. Sahibkar torpağını ya özü əkməli, ya da başqa müsəlmanlara işlətmək üçün pulsuz verməli idi. Sonradan görəcəyik ki, xam torpağın sahibi bu torpağın məhsulundan bir hissəni tələb etdikdə iddia edilir ki, o, əslində, həmin torpağın məhsuldarlıq xassəsini yaradan tərəf kimi çıxış edir. Əslində isə torpağa bu xassəni bəxş edən Allahdır.

## *c. Konseptual-professional dərk və izahın zəruriliyi*

Hədislərin öyrənilməsində üçüncü metodoloji qayda budur ki, bu hədislərin mahiyyət və fəlsəfəsini konseptual şəkildə dərk edək, hədislərə kompleks yanaşaq. İndiki dövrdə müsəlman mütəfəkkir və tədqiqatçıların bu metodoloji qaydanı nəzərə almaları çox mühümdür. Aşağıdakı misallar əsasında nə demək istədiyimizi izah edək:

İmam Buxari rəvayət edir ki, Əbu Səid əl-Xudri *(Allah ondan razı qalsın!)* demişdir:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* müzabənə[3] və mühaqələni[4] qadağan etmişdir".

Bunlar alış-verişin (sövdələşməsinin) iki növüdür. Onların hər birində müəyyən miqdar məhsul başqa məhsulla dəyişdirilir. Məsələn, üzüm kişmişlə dəyişdirilir, torpaq sahəsi müəyyən miqdar buğda qarşılığında icarəyə götürülür və s.

Əbu Səid əl-Xudriyə *(Allah ondan razı qalsın!)* istinadən İmam Malik rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

---

[3] **Müzabənə** çəkisi və sayı məlum olmayan bir şeyi təxmini qiymətləndirmə ilə satmaq deməkdir. Peyğəmbərin dövründə ərəblər xurma ağacında hələ yetişməmiş xurmaları təxmini hesablayır, özlərinə lazım olan başqa məhsulları təqribi müəyyən etdikləri bu xurma müqabilində satın alırdılar. Yəni, bir tərəfin mövsümə yetişmədən ərzağı (məhsulu) qurtarır, digər tərəfə də xurma lazım olurdu. Bu səbəbdən tərəflər sövdələşirdilər.
Və ya ağacdakı dəyməmiş xurma və ya üzüm təxmini hesablanır və satılırdı. Məsələn, satan ağacdakı dəyməmiş məhsulu göstərib: "Bu ağac təxminən 50 kq xurma verəcək" – deyir, qarşı tərəfdən 50 kiloqramın pulunu alır, ya da onu əlli kiloqram dəyərində başqa məhsulla dəyişirdi. Ağacdakı məhsul təxmini hesablandığı üçün alış-verişlərdə tez-tez münaqişələr meydana gəlirdi. Məhz bu səbəbdən qadağan edilmişdir – ***tərcüməçinin qeydi.***

[4] **Mühaqələ**: hələ yetişməmiş, sünbül buğdasını yetişmiş buğda olaraq satmaq mənasına gəlir. Yəni, tarlanın sahibi alıcıya: "Bu tarla təxminən 500 kq buğda verəcək" – deyir və hələ dəyməmiş buğdanı ona 500 kq dəymiş buğda qiymətinə satır. Mühaqələ dedikdə, həmçinin, torpaq sahəsini buğda müqabilində və ya ondan alınacaq məhsulun bir hissəsi qarşılığında icarəyə götürmək başa düşülür – ***tərcüməçinin qeydi***.

"Qızılı qızılla satmayın. Amma eyni miqdarda olarsa, satın. Biri digərindən az və ya çox olmasın. Onların mövcud olmayanını mövcud olanı ilə satmayın".

Səid ibn Müsəyyəbə istinadən İmam Malik rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* heyvanları ət müqabilində satmağı qadağan etmişdi.

Əta ibn Yəsara *(Allah ondan razı qalsın!)* istinadən İmam Malik rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

"Xurmanı xurmaya ancaq eyni misli ilə satmaq lazımdır." (Bu vaxt kənardan) dedilər: "Ey Allahın rəsulu, sənin Xeybərdəki (zəkat) məmurun bir sa` xurmanı iki sa` xurma ilə alır." Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurdu: "Onu yanıma çağırın." Məmura xəbər göndərdilər. Gəldiyi vaxt Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* soruşdu: "Bir sa` xurmanı iki sa` xurma iləmi alırsan?" Zəkat məmuru: "Ey Allahın elçisi, onlar mənə bir sa` yaxşı xurmanı bir sa` aşağı növ xurma ilə satmırlar", – deyə cavab verdi. Bunu eşidən Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurdu: "Elə isə aşağı növ xurmanı dirhəmə sat, daha sonra bu dirhəmlərə yaxşı növ xurma al".

İmam Malik rəvayət edir ki, Mücahid demişdir:

"Abdullah ibn Ömərlə idim. Bu vaxt bir zərgər gəlib Abdullaha dedi: "Ey Əbdürrəhmanın atası, mən qızılı emal edir, sonra işlədiyim bu qızılı çəkisindən artığa satıram. Bununla da zəhmətimin qarşılığını alıram[5]." Bunu eşidən Abdullah ona belə hərəkət etməyi qada-

[5] Yəni, çəkdiyim zəhmətin qarşılığı olaraq, qızılı çəkisindən artığa satıram – ***tərcüməçinin qeydi.***

ğan etdi. Abdullah məscidin qapısına çatanadək zərgər eyni şeyi soruşur, Abdullah da bunu ona qadağan edirdi. Axırda, Abdullah ibn Ömər zərgərə dedi: "Qızıl qızıla, gümüş də gümüşə misli ilə, artıq-əskik olmadan satılmalıdır. Bu bizə peyğəmbərimizin əmridir, biz də sizə eyni şeyi əmr edirik".

Übadə ibn Samitə istinadən İmam Tirmizi rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

"...Qızılı gümüş müqabilində nağd olaraq istədiyiniz kimi satın. Buğdanı xurma qarşılığında nağd olaraq istədiyiniz kimi satın. Arpanı xurma qarşılığında nağd olaraq istədiyiniz kimi satın".

İmam Buxari rəvayət edir ki, Bəra ibn Azib və Zeyd ibn əl-Ərqam demişlər:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qızılı gümüş müqabilində borc olaraq (nisyə) satmağı qadağan etmişdir".

Bu faktlar bizə səhabələrinin hədisləri başa düşmə üslublarından xəbər verir. Onlar bu hədisləri ticarət qaydalarını və pul əməliyyatları üsulunu müəyyənləşdirən dövlət qərarları hesab edirdilər. Fəqihlərə gəlincə, onlar bu qərarları yaşadıqları dövrün reallıqları: zaman və məkan amilləri çərçivəsində nəzərdən keçirməmiş, əbədi ilahi prinsip və qaydalar kimi qəbul etmişdilər. İndiki dövrdə bir çox tədqiqatçı və mütəfəkkir bu hədislərdə iqtisadi siyasət amillərini, qarşıya qoyulan məqsədləri asanlıqla müəyyən edə bilir.

Bu hədisləri deyən Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* əsas məqsədi donuq bədəvi (ibtidai) mübadilə sistemini dinamik pul iqtisadiyyatı sistemi ilə əvəz etmək,

ən münasib ticarət və mübadilə vasitəsi təsis etmək olmuşdur. Pul iqtisadiyyatını nəzərə almadan əmr və qadağa hədislərinin məzmununa məna vermək çətindir. Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Xeybərdəki zəkat məmuruna verdiyi təlimat buna misaldır.

Məlumdur ki, eyni miqdar və ya ölçüdə olan şeylərin dəyiş-düyüş edilməsi faiz hesab olunmur və Peyğəmbəri *(Ona Allahın xeyir-duası və salamı olsun!)* narahat edən də bu deyildi. Peyğəmbər pulun ticarət və mübadilə vasitəsi kimi istifadə edilməsinə xüsusi əhəmiyyət verir, insanları mübadilə ticarətindən uzaqlaşdırmaq istəyirdi. Mədinədə pul iqtisadiyyatı sisteminə keçilməsində ticarət mühüm rol oynayırdı. Şübhə yoxdur ki, pul iqtisadiyyatı qiymətləri tənzimləmək üçün aktiv və dəqiq meyarlar təqdim edir, insanların əmtəə və xidmətlərin mübadiləsinə dair qeyri-bərabər sövdələşmələrin qurbanına çevrilməsinin qarşısını alır.

Peyğəmbərin iqtisadi siyasətində ikinci məqsəd bu idi ki, ticarətin rahat inkişaf etməsi üçün cəmiyyət pul vasitəsi ilə təmin olunsun. Qızıl və gümüş həm Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dövründə, həm də ondan sonra uzun müddət ərzində sövdələşmə və ticarətdə yeganə məqbul və mümkün vasitə hesab olunurdu. Pul kimi istifadə etmək üçün qızıl və gümüşü əldə etməyin adətən iki yolu vardır:

Birincisi yataqlardan qızıl və gümüş filizi çıxarmaqdır. Bu üsuldan Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dövründə Mədinədə istifadə etmirdilər.

İkincisi isə valyuta üçün lazım olan qızıl və gümüşün qiymətini ödəmək məqsədilə ticarət balansını artırmaq-

dır. Bu üsuldan da Peyğəmbərin dövründə Mədinədə istifadə edilmirdi. İnsanların əlində olan qızıl və gümüşü pula çevirmək yeganə mümkün üsul idi.

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qızıl və gümüşdən əmtəə kimi istifadə etməmək göstərişini verdiyində yuxarıdakı üsul mümkün hala gəldi. Peyğəmbərin göstərişinə əsasən qızıl və gümüş ancaq pul kimi istifadə edilməli idi. Bu hal yuxarıdakı bütün hədisləri izah edir. Bundan sonra zərgərlərin əməyinin qarşılığı olaraq qızıldan istifadə edilmədi. Qızılın qızılla, gümüşün də gümüşlə ancaq misli ilə, həm də dərhal, sonraya saxlamamaq şərti ilə dəyişdirilməsinə icazə verilmişdi.

Bu fakt kişilərin qızıl və gümüş (üzük) taxmalarının nə üçün haram sayıldığını da izah edir. Əks halda, zərgərin sualına İbn Ömərin *(Allah ondan razı qalsın!)* verdiyi cavabı başa düşmək çətindir. Yəni, İbn Ömərin həmin zərgərdən pulsuz işləməyi tələb etməsi ağla batmır. Aydındır ki, İbn Ömər belə demək istəmişdir: işində qızıl və gümüşdən başqa metallardan istifadə et. Qızıl və gümüş əmtəə deyildir. Onlardan pul və sövdələşmə vasitəsi kimi istifadə et.

Həmçinin bu fakt əsasında biz Müaviyənin Əbu Dərdaya verdiyi əks-reaksiyanın, Xəlifə Ömərin işçisi Müaviyəyə göstərişinin məqsədini başa düşürük. Müaviyə məkkəli tacir olub islamı Peyğəmbərin həyatının son illərində qəbul etmişdi. O, islamı gec qəbul etdiyindən məlum ticarət müqaviləsinin məqsədini dərk edə bilməmişdi. Əbu Dərda və Ömər ibn Xəttab isə iqtisadi siyasəti və iqtisadiyyatın tənzimlənməsi işini yaxşı bilirdilər.

Klassik fəqihlər sözügedən hədislərdə ifadə olunmuş iqtisadi siyasətdən söz açmamış, ya da onu başa düşməmişlər. Yaşadıqları dövrdə bunun zərəri yox idi, çünki mövcud iqtisadi sistem Peyğəmbərin dövründəki iqtisadi sistemin eynisi idi. Bədbəxtlikdən, bu fəqihlər həmin hədisləri vasitə və üsul olaraq deyil, hərfi-hərfinə, mütləq hökmlər olaraq tətbiq edirdilər. Klassik fəqihlərin bu hərfi-hərfinə yanaşma tərzi onların dövründə qızıl və gümüşün ticarətdə istifadəsini asanlaşdırmağı məqsəd güdürdü.

İndiki dövrdə müsəlman iqtisadçılar və fəqihlər iqtisadi siyasəti, sözügedən hədislərin məqsədi və fəlsəfəsi ilə əlaqəsini düzgün şəkildə öyrənməlidirlər. Həmin hədislərdə məqsəd insanların vəziyyətini asanlaşdırmaqdır. Həm tədqiqatçılar, həm də dövlət xadimləri analitik, universal və metodoloji yanaşma tərzi nümayiş etdirməli, Peyğəmbərin məqsədi və siyasətini diqqətlə öyrənməlidirlər. Onlar islam dünyagörüşünü əsas götürməklə öz dövrləri və yaşadıqları ərazidə həmin məqsədləri həyata keçirə bilərlər. Onlar erkən islam dövrünün iqtisadi siyasətini düzgün şəkildə başa düşmək, dövrün iqtisadi problemlərinə cavab tapmaq, yeni istiqamətlər müəyyənləşdirmək üçün elmi bacarıq və imkanlarından istifadə etməlidirlər. Müsəlman elm və dövlət adamları rəqabətdən qalib çıxmaq, ümmətə xidmət etmək istəyirlərsə, müasir tələblərə cavab verən yaradıcı layihələr hazırlamalıdırlar.

# 2. İslam iqtisadiyyatı: əsasları və prinsipləri

## *2.1. Tövhid*

Bəziləri elə güman edir ki, tövhid ancaq Allahın tək yaradıcı olduğunu qəbul etməkdir. Təbii ki, belə yanaşma naqisdir və islamın tövhid ideyasını özündə bütövlükdə ehtiva etmir. Allah Təala Quranda buyurur ki, belə bir təsdiq tövhidi bütövlükdə ifadə etmir, bir şəxsin müsəlman olduğunu göstərmir. Allah Təala buyurur:

"(Ya rəsulum!) Həqiqətən, əgər sən (müşriklərdən): "Göyləri və yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların əksəriyyəti bilməz!" (Loğman, 25).

Bəzilərinə görə, tövhid xristianlığın troitsa[6] etiqadına əks etiqaddır. Amma Quranda göstərilir ki, tövhid geniş anlayışdır. Tövhid anlayışının iki tərəfi vardır: birinci tərəf insanların bir-birləri ilə münasibətləri, ikinci tərəf isə Allah-insan münasibətləri ilə əlaqədardır.

"Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar (rəblər) qəbul etdilər. Halbuki onlar ancaq bir olan Allaha ibadət

---

[6] **Troitsa (və ya: üç üqnüm, üçlü tanrı):** xristian dininə görə üç sifətdə (ipostasda): Ata, Oğul və Müqəddəs ruhda birləşmiş tanrı – ***tərcüməçinin qeydi.***

etmək əmr olunmuşdu. Ondan başqa heç bir tanrı yoxdur. Allah pak və müqəddəsdir. Ona şərik qoşulan bütlərlə heç bir əlaqəsi yoxdur! (Allah müşriklərin Ona şərik qoşduqları bütlərdən uzaqdır!)" (ət-Tövbə, 31).

Deməli, Allahla əlaqə tövhidin ancaq bir tərəfini əmələ gətirir. Bu ona görədir ki, insanlarla düzgün əlaqə yaratmağı bilməyən insan Allahla doğru-dürüst əlaqə yaratmağı bilməz. Allahla düzgün əlaqə yarada bilməyən isə insanlarla münasibət qurmağı bacarmaz.

Bəlkə də, məhz buna görə müasir dövrün müsəlmanları tövhid sözündən əcdadlarının aldıqları gücün eynisini almaqda aciz qalmışlar. Onlar elə zənn edirlər ki, tövhidi düzgün başa düşürlər.

Tövhid söz deyildir, fəlsəfədir, anlayışdır. Məhz tövhidə əsasən insan başqaları ilə münasibət qurmağı öyrənir, Allahla əlaqənin fonunda onlarla münasibət yaradır. Tövhidi tərəziyə oxşatmaq mümkündür: bir gözü dəyişmədikcə digər gözü də dəyişmir. Tövhid varsa, insan oğlu həm Allah, həm də insanlar qarşısında şüurlu və məsuliyyətli olacaqdır. Həqiqi müsəlman Allah yox imiş kimi hərəkət edə, insanları aldatdığı kimi rəbbini də aldadıb məsuliyyətdən qaça bilməz.

Tövhid iki üzü olan dəmir pulu xatırladır: bir üzündə yazılıb ki, Allah yaradıcıdır, yaratmasında məna və məqsəd vardır. İkinci üzündə isə oxuyuruq: insanlar eyni cəmiyyətin üzvüdürlər, bərabərdirlər. Bu o deməkdir ki, kişilər və qadınlar bir-biri ilə əlaqəlidirlər, bir-birinə ehtiyacları vardır, bir-birinə dayaqdırlar. İqtisadiyyata gəlincə, bu, bərabərlik, əməkdaşlıq, ortaq maraqlar deməkdir.

İslama görə, rəbb olmaq ancaq Allaha xasdır. İqtisadiyyat baxımından bu o məna gəlir ki, Allahın yaratdığı təbii resurslar insanların maraqları üçün mövcuddur. Bu resurslar yer üzündə, təbii qanun və fiziki qüvvədə öz əksini tapmışdır. Bu həm də o deməkdir ki, heç kəs əmtəə siyasəti apararaq, böhranlar yarada, ancaq özünün faydalanacağı monopoliya qurmaq üçün bazarda əmtəə (mal) qıtlığına səbəb ola bilməz. Bu resurslar, təbiətdəki potensial bütün cəmiyyətin mülkiyyətidir. Cəmiyyətdəki bütün insanların onlardan istifadə hüququ vardır. Kiminsə daha çox pay istəmək haqqı yoxdur, çünki bu potensial və resursları o yaratmamışdır.

Aşağıdakı ayələrdən görürük ki, kainatı, dünyanı, dünyadakı hər şeyi, o cümlədən resurs və təbiətdəki potensialı insanlar faydalansın deyə Allah yaratmışdır. İnsanlar bu resurslardan faydalanır və onları özlərindən sonrakı nəsillərə əmanət buraxırlar.

Uca Allah buyurur:

"Göyləri və yeri yaradan, göydən yağmur endirən, o yağmurla sizin üçün ruzi olaraq (cürbəcür) meyvələr yetişdirən, əmri ilə dənizdə üzmək (yüklərinizi bir yerdən başqa yerə daşımaq) üçün gəmiləri sizə (sizin mənafeyinizə) tabe və çayları sizə ram edən Allahdır!

(Daim öz hədəqəsində, özləri üçün müəyyən olunmuş yerdə) seyr edən Günəşi və Ayı, həmçinin gecəni və gündüzü sizin ixtiyarınıza verən Odur" (İbrahim, 32-33);

"And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlara birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət

tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər. Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də icad (nazil) etdik (mədənlərdən çıxartdıq) ki, Allah (Özünü) görmədən Ona (onun dininə) və peyğəmbərlərinə kömək göstərənləri (dəmirdən düzəlmiş silahlarla kafirlərə qarşı vuruşan mücahidləri) bəlli etsin. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir!" (əl-Hədid, 25);

"Bəs əkdiyiniz (toxuma) nə deyirsiniz?

Onu bitirən sizsiniz, yoxsa Biz?!

Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərərdik..." (əl-Vaqiə, 63-65);

"Yaxud (məxluqatı) öncə yaradan (öldükdən) sonra (qiyamət günü) onu yenidən diriləndən, sizə göydən (yağışla), yerdən (növbənöv bitkilərlə, meyvələrlə) ruzi verən kimsə?! Məgər Allahla yanaşı başqa tanrımı var?" De: "(Ey müşriklər!) Əgər (Allahın şərikləri olduğunu) doğru deyirsinizsə, dəlilinizi gətirin!" (ən-Nəml, 64);

"Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!" (ən-Nisa, 1);

"(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən

orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. (Allah onlara:) " Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu" (əl-Bəqərə, 30).

## 2.2. Varislik və qardaşlıq

Tövhid və islam nöqteyi-nəzərinin ikinci prinsipi qardaşlıqdır. Allah Təala buyurur ki, O, yer üzündən istifadə edib orada rəbbinin təmsilçisi olsun deyə insanı yaratmışdır. Bu daha universal anlayışın bir elementidir. Kollektiv varislik hesab edilən qardaşlıq "tövhid" adlı dəmir pulun bir üzüdür. Bu, müsəlman cəmiyyətinə fəallıq və müsbətlik kəsb etdirmədə, bərabərlik, həmrəylik və əməkdaşlığı formalaşdırmada mühüm amil hesab olunur. Uca və Pak Allah buyurur:

"Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!" (ən-Nisa, 1);

"Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız!" (əl-Hucurat, 10).

Abdullah ibn Ömər rəvayət edir ki, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* belə dediyini eşidib:

“İnsanlar aralarından minilməyə yararlı bircə dəvə tapa bilməyəcəyiniz yüz dəvə kimidir” (Buxari).

Əbu Musa əl-Əşəri rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

“İki mömin bir-birini möhkəmlədən iki kərpic kimidir” (Buxari).

Əbu Məsud əl-Ənsari rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

“Ey insanlar! (Namazı uzun-uzadı qıldıraraq insanlarda ona qarşı) nifrət yaradırsınız. Sizdən kimsə insanlara namaz qıldırdıqda uzatmasın, qısa tutsun. Çünki aranızda xəstə olanı, zəif olanı, qoca olanı vardır” (Buxari).

İslam iqtisadi münasibətlərinə aid bir məsələ də sələmin ləğv edilməsi ilə əlaqəlidir. İslama görə, sələm bu gün bir çox insanın zənn etdiyindən daha geniş mənalı anlayışdır. İnsanlar elə güman edirlər ki, sələm ancaq faizlə məhdudlaşır. Geniş mənada sələm təbii resurs və potensialı qeyri-qanuni şəkildə ələ keçirmək, onlardan istifadə etməkdir. Bu mənada sələm varislik və qardaşlıq prinsiplərinə ziddir. Bir insanın Allah tərəfindən yaradılmış təbii resurslar üzərində özünün mütləq sahibliyini iddia etməsi qardaşlıq və varislik prinsiplərini zədələyir. Halbuki Allah Təala bütün bu resursları cəmiyyətin bütün bərabərhüquqlu üzvlərinin mənfəəti üçün yaratmışdır.

Varislik və qardaşlıq “tövhid” adlanan dəmir pulun bir üzünü əmələ gətirir. İslama görə, yer üzündə varislik və bəşəri qardaşlığı məhv etmək tövhidi məhv etməkdir. Heç bir müsəlman cəmiyyəti isə tövhidin

məhv edilməsini qəbul etməz. Müsəlmanlar tövhidi olduğu kimi qorumaq və mümkün tətbiqi üçün əllərindən gələni edirlər.

Sələm geniş və dar mənada, əsasən, gəlirə sahib olmaq və onu bölüşdürmək məsələsidir. Sələm "Kim nəyə sahibdir?" məsələsidir. Hər hansı bir şəxs təbii resurslarda öz payının olduğunu mütləq şəkildə iddia edərsə, islamın qoyduğu qaydanı tapdalamışdır. Bu qayda sələmlə əlaqəlidir. İndiki müsəlman cəmiyyətlərinə gəlincə, onların üz-üzə gəldiyi iqtisadi problem sələm (faiz) problemidir. Sələm həm islamın müəyyənləşdirdiyi mülkiyyətin, həm də cəmiyyətin güclü fərdlərinin istehsal amili olaraq təbii resurslara dair səsləndirdikləri iddiaların sərhədi məsələsidir. İslam iqtisadi nöqteyinəzəri əsasında bu başlıca məsələlərə aydın və alternativ cavablar tapmaq müsəlman iqtisadçıların mühüm vəzifəsi hesab olunur.

Faizin varislik və qardaşlıq prinsiplərinə, deməli, tövhidə təsirini görmək çətin deyildir. Məsələn, faiz cəmiyyətin güclü fərdlərinin hər şeyə sahib olduqlarını, yəni rəbb olduqlarını iddia etmələri mənasına gəlir. Kapitalist mülkiyyətin hökm sürdüyü müsəlman cəmiyyətlərində varlılar və kasıblar, mülkədarlar və yoxsullar, güclülər və zəiflər arasında dərin uçurumun olduğunu görmək mümkündür. Belə cəmiyyətlərdə zəif və kasıbların təhlükəsizliyi, hüquqları, hörməti qorunmur.

Eyni şeyi fərqli formada sosialist mülkiyyəti formasının yayıldığı ölkələrdə də görmək mümkündür. Təbii ki, bu, cəmiyyətin ayrı-yarı fərdləri ilə resurslara nəzarət

edən rəhbər sinif arasındakı münasibətlərin necəliyini bizə izah edir.

## 2.3. İslamın xüsusi mülkiyyət anlayışı

İslamın xüsusi mülkiyyət anlayışını tövhid, varislik və qardaşlıq prinsipləri ilə vəhdətdə izah etmək mümkündür. Real islam iqtisadi modelini və xüsusi mülkiyyət formasını bir-birinə uyğun şəkildə müəyyən etmək çox vacibdir. Həmçinin bu iki anlayış islamın tövhid təlimini tamamlamalıdır.

Tövhid anlayışı qardaşlıq və bərabərlik baxımından islam iqtisadiyyatında öz əksini tapdığı üçün cəmiyyətin bütün fərdləri resurslardan istifadə etmək və onları inkişaf etdirmək hüququna sahibdirlər. Bu səbəbdən diktatorların, komitə və komitə rəhbərlərinin azğınlığı və müstəbidliyinə qarşı öz payına düşən resurslardan düzgün istifadə üsulları məsələsində müdrik qərar qəbul etməsi üçün hər bir insanın azadlığını qorumaq lazımdır. İslamda bunun üçün həm cəmiyyətin bütün üzvlərinin şəxsi mülkiyyət hüququ, həm qanuni varislik, həm də mövcud resursları istehlak etmək və qanuni yollarla artırmaq üsullarından istifadədə fərdlərin söz haqqı təmin olunur.

Bu mənada şəxsi mülkiyyət o deməkdir ki, insan cəmiyyətdəki bəzi təbii resurs və imkanlara qanuni şəkildə əl qoya bilər. İslama görə, bunda məqsəd insanın öz yaşayış vasitələrini inkişaf etdirməsidir. İnsanın istehsal etdiyi şeyləri bütövlükdə və ya qismən istehlak etmək hüququ olduğu kimi, o bu haqqı başqalarına da

verə bilər. Amma ehtiyaclarını ödəmək üçün onun ona aid resurslardan birinci istifadə etmək hüququ vardır. Heç kəsin onu bu hüquqdan məhrum etmək haqqı və səlahiyyəti yoxdur. Əgər hər hansı bir şəxsin ilk istifadə haqqına sahib olduğu bu və ya digər resursdan istifadə etməyə gücü və ya əzmi çatmırsa, o, cəmiyyətin başqa üzvünün xeyrinə bu resursdan imtina etməlidir. O bu resursdan alınan məhsulun hər hansı bir hissəsini birbaşa və ya fərdi şəkildə tələb etmək haqqına sahib deyildir. Konseptual baxımdan resurslar və onların istehsal xassələri üzərində mütləq mənada fərdi mülkiyyət tələb etmək islam nöqteyi-nəzərində o mənaya gəlməlidir ki, bunu iddia edən insan Yaradıcı deyildir. Odur ki o, əlavə gəliri cəmiyyətin zəif fərdlərinə verməlidir. Bu ona görədir ki, həmin şəxs təbii resursların istehsal edilmə və etmə xassəsindən ("yaradıcılığ"ından) özünə düşən paydan artığını istifadə edir.

Cəmiyyətin bacarıqlı və imkanlı şəxsləri zəif insanlara öz işlərində faydalanmaq üçün əlavə resurslar əldə etmək imkanı yaratmalıdırlar. Eyni vaxtda, zəif və imkansız kimsələr resurslardan qanuni paylarını onlara verən güclü və bacarıqlı şəxslərin əməlini qiymətləndirməlidirlər. Hər iki tərəf iqtisadi münasibətlərə qarşılıqlı mənfəət və əməkdaşlıq kimi baxmalıdır.

Aşağıdakı ayə və hədislərdən görəcəyik ki, islama görə, şəxsi mülkiyyət mütləq hüquq deyildir. Allah Təala buyurur:

"(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə təriflər

dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. (Allah onlara:) "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu" (əl-Bəqərə, 30);

"İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar!

Şübhəsiz ki, (qiyamət günü) onun zəhməti (səyi, əməli) görünəcəkdir!" (ən-Nəcm, 39-40);

"Yetimləri nikah yaşına çatıncaya qədər sınayın. Əgər ağla dolduqlarını (həddi-büluğa çatdıqlarını) hiss etsəniz, mallarını özlərinə qaytarın. Böyüyəcəklər (böyüyən kimi mallarına sahib olacaqlar) deyə, o malları israf edib tələm-tələsik yeməyin. Zəngin olan (qəyyum) o mala toxunmasın, kasıb isə qəbul olunmuş qayda üzrə (ehtiyacı olduğu qədər, çəkdiyi zəhmətin əvəzi miqdarında) yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman yanlarında şahid tutun! Haqq-hesab çəkməyə Allah kifayət edər!" (ən-Nisa, 6);

"De: "Göylərdə və yerlərdə olanlar kimindir?" De: "Allahındır!" O Öz- Özünə rəhmli olmağı yazmışdır. (Bəndələrinə qarşı rəhmli olmağı Özü üçün əzəldən O Müəyyən etmişdir). Olacağına heç bir şübhə edilməyən qiyamət gününə sizi O toplayacaqdır. Özlərinə zərər vuranlar, əlbəttə, iman gətirməzlər!" (əl-Ənam, 12);

"Evlənməyə qüvvəsi çatmayanlar (maddi imkanı olmayanlar) Allah öz lütfü ilə onlara dövlət verənə qədər iffətlərini qoruyub (özlərini zinadan) saxlasınlar. Kölələrinizdən mükatəbə etmək istəyənlərlə - əgər onlarda bir xeyir (müqavilədəki şərtlərin yerinə yetirilməsi

üçün qüdrət) görürsünüzsə - mükatəbə edin. Onlara Allahın sizə verdiyi maldan verin. Əgər cariyələriniz ismətlərini qoruyub saxlamaq istəsələr, fani dünya malı əldə etmək xatirinə onları zinaya məcbur etməyin. Kim onları (cariyələri zinakarlığa) məcbur edərsə, (bilsin ki) onların bu məcburiyyətindən sonra, əlbəttə, Allah (zinakarlığa vadar olanları) bağışlayar, rəhm edər" (ən-Nur, 33);

"Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin (ən pak, halal və) yaxşılarından (Allah yolunda) sərf edin! Ancaq göz yumaraq aldığınız pis, yaramaz şeylərdən vermək fikrində olmayın! Bilin ki, Allahın heç bir şeyə ehtiyacı yoxdur. (O, hər cür) şükrə (tərifə) layiqdir!" (əl-Bəqərə, 267);

"Həqiqətən, Qarun Musa qövmündən (Musanın əmisi oğlu) idi. Onlara (İsrail oğullarına) qarşı (zülm etməkdə, Musanın üzünə ağ olmaqda və özünü yuxarı tutmaqda) həddini aşmışdı. Biz ona açarlarını bir dəstə güclü adamın zorla daşıya biləcəyi xəzinələr vermişdik. Qövmü ona belə dedi: "(Malına qürrələnib) sevinmə. Şübhəsiz ki, Allah (malına qürrələnib) sevinənləri sevməz!

Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma. (O maldan qismətinin ancaq bir kəfən olduğunu bil. Pulunu mənasız yerə sağa-sola səpələmə; səhhətinin, sərvətinin, gəncliyinin qədrini bil. Sabah səni Allahın əzabından qurtara biləcək yaxşı əməllər et). Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də yaxşılıq

et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!"

(Qarun) dedi: "Bu (var-dövlət) mənə yalnız məndə olan elm (Tövratı gözəl bilmək, yaxud əlkimyaya yaxşı bələd olmaq, ticarətdən baş çıxartmaq) sayəsində verilmişdir. Məgər o (Qarun) Allahın ondan əvvəl özündən daha qüvvətli və daha varlı olan neçə-neçə kəsləri məhv etdiyini bilmirdimi? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmazlar" (əl-Qəsəs, 76-78);

"Mallarında da dilənçinin və (abrına qısılıb dilənməyən) yoxsulun haqqı (payı) var idi" (əz-Zariyat, 19);

"Əgər belə etməsəniz, o zaman Allaha və Onun peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin!Yox, əgər tövbə etsəniz, sərmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar!" (əl-Bəqərə, 279);

"Ata, ana və qohumların (vəfat etdikdə) qoyub getdikləri maldan kişilərə və qadınlara pay düşür. Həmin malın azından da, çoxundan da (bunlara veriləcək) hissə müəyyən edilmişdir" (ən-Nisa, 7);

"Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin. Xalqın malının bir qismini (onun sizə haram olduğunu) bilə-bilə günah yolu ilə yeməyiniz üçün onu (malınızı) hakimlərə (rüşvət) verməyin!" (əl-Bəqərə, 188).

İmam Əhməd rəvayət edir ki, Xalidin oğulları Hübbə və Səva demişlər:

"Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yanına getmişdik. Gördük ki, nə isə düzəldir. Kömək etdik. Buyurdu:

“Yaşadığınız müddətcə ruziyə görə ümidsizləşməyin. İnsan qırmızı və lüt-üryan doğular. Daha sonra Böyük və Uca Allah ona ruzi bəxş edər”.

Cabir ibn Abdullaha istinadən İmam Müslim rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

“Kimin torpağı varsa, əkib becərsin. Yox, əkməyi bacarmazsa və buna gücü çatmazsa, torpağı müsəlman qardaşına icarə olmadan versin”.

İmam Əhməd rəvayət edir ki, Rafe ibn Xədic demişdir:

“Peyğəmbər bizə torpağı icarəyə əkməyi qadağan etdi. Biz sahib olduğumuz, ya da bizə bağışlanan torpaqları əkə bilərdik”.

Həzrəti Aişəyə *(Allah ondan razı qalsın!)* istinadən İmam Buxari rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

“Kim bir ərazini münbitləşdirərsə, oraya sahib olmağa daha layiqdir”.

Ayə və hədislər göstərir ki, biz Yaradan, hər bir insanın, canlının ruzisini verən Allah kimi deyilik. İnsan dünyaya əliboş gəlir; Allahın köməyi, cəmiyyətin qayğısı və əməkdaşlığı olmazsa, insan həyatda qala, böyüyə, yaşamağı öyrənə bilməz.

İnsan işləməklə, təbii resurs və imkanlardan istifadə etməklə yaşayışını təmin edir. Aydın məsələdir ki, güclülər və imkanlıların qazandığı hər bir şeydə zəif və möhtac şəxslərin də payı olmalıdır.

Cəmiyyətin zəif fərdlərinin xüsusi mülkiyyətlə əlaqəli hüquqları vardır. Bu baxımdan, bu və ya digər resursu mütləq mənada bir fərdin mülkiyyətinə daxil etmək

olmaz. Bunu o halda etmək mümkündür ki, cəmiyyətin rifahı üçün həmin resursdan bacarıq və müdrikliklə istifadə edilsin. İstismar və istismara məruz qalmaq, islama görə, faiz prosesini əmələ gətirir. Cəmiyyəti və fərdləri istismar etmək olmaz. Hər bir fərd öz qanuni payını almalıdır. İstehsalda xüsusi mülkiyyətin prioritet məsələ olmadığını kimsə iddia edə bilməz. İnsanın mülkiyyətə münasibət hüququ cəmiyyət və fərqlərinin hüquqlarına, maraq və rifahına əsaslanır.

Əsl müsəlman cəmiyyətində özünü Allah kimi aparan müsəlman ola bilməz. Müsəlman cəmiyyətlərində resurslarla əlaqədar iddialar varislik və bəşərilik (insanlıq) çərçivəsində irəli sürülməlidir. Hər bir zəif, möhtac insana qayğı göstərmək lazımdır. Onları kimsəsizliklə baş-başa qoymaq olmaz. Bütün başlıca tələbat və hüquqlar təminat altına alınmalı, qorunmalıdır.

## *2.4. Gəlirlərin müxtəlifliyi zəhmət və əməkdən asılıdır*

Fərdi gəlirlərin müxtəlifliyinin əmək və zəhmətdən asılı olmağı o halda gəlinən yeganə nəticə ola bilər ki, fərdin mümkün təbii resurs və imkanlardan əldə etdiyi gəlir cəmiyyətin digər üzvlərinin gəlir və payı ilə eyni olsun.

Görəcəyimiz kimi, faiz təkcə kredit və ya bank gəliri deyildir, həm də islama görə, istehsal və bölüşdürmənin bütün amillərini (kapital, torpaq, təbii qanunlar, monopoliya gücü) özündə ehtiva edən hərtərəfli (geniş) anlayışdır. Faiz təqsiri olmayan insanların resursları-

nı məhdudlaşdırır, möhtəkirlərin gəlirlərini isə qeyri-qanuni şəkildə çoxaldır. Müsəlman cəmiyyətində möhtəkirliyə icazə verilə bilməz. Bütün bu hallarda, şəxs zəhmətinin dəyərinə əlavə olaraq təbii resurslardakı payından çox gəlir tələb etdikdə allahlıq iddiasına düşmüş sayılır, bununla da, sələm günahını işləyir.

## 2.4.1. Torpağı icarədə faiz və kapital gəlirləri

Baxaq görək islam bu iqtisadi prinsipinə necə əməl olunur. Əvvəlcə, torpağı icarə pulu haqqında bizə gəlib çatmış hədislərə nəzər salaq. Görəcəyik ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* təkcə kredit və icarə ilə deyil, həm də torpaqla əlaqəli faizdən söz açmışdır. Bundan sonra faizin nə olmağı və torpaqla əlaqəli məsələlərdə necə əksini tapmağı məsələsini müzakirə edəcəyik.

Bu məqsədlə biz torpağı icarə pulu haqqında olan hədisləri aşağıdakı dörd bəndə təsnif və müzakirə etmişik. Məqsədimiz kapitaldan və torpağı icarə pulundan irəli gələn faiz anlayışının geniş şərhini verməkdir.

### a. Torpağın icarəyə verilməsinin qadağan edilməsi

Cabir ibn Abdullah *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

“Kimin torpağı varsa, əkib becərsin. Yox, əkməyi bacarmazsa və buna gücü çatmazsa, torpağı müsəlman qardaşına icarə olmadan (hədiyyə) versin” (Müslim).

İmam Əhməd və Nəsai rəvayət edirlər ki, Rafe ibn Xədic demişdir:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* faydası dəyən bir işi etməyi bizə qadağan etdi. Allaha və peyğəmbərinə itaət bizə daha çox fayda gətirəcəkdir. Belə ki o buyurmuşdu: "Kimin torpağı varsa, əksin. Yox, bacarmazsa, qardaşına əkdirsin".

İmam Buxari, İmam Müslim və Əbu Davud rəvayət edirlər ki, Salim ibn Abdullah demişdir:

"İbn Ömər torpağını icarəyə verirdi. Bir dəfə ona xəbər çatdı ki, Rafe ibn Xədic əl-Ənsari torpağın icarəyə verilməsini qadağan edir. Abdullah onunla görüşüb soruşdu: "İbn Xədic, torpağı icarə vermək haqqında Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* hansı rəvayəti danışa bilərsən?" Rafe ibn Xədic Abdullaha dedi: "İki əmimin Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* torpağı icarəyə verməyi qadağan etməsi haqqında öz ailələri ilə söhbət etmələrini eşitmişəm." Abdullah dedi: "Bilirəm ki, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dövründə torpaq icarəyə verilirdi". Amma Abdullah çəkindi ki, Peyğəmbər bu barədə onun xəbər tutmadığı nə isə söyləyə bilər. Odur ki torpağını bir daha icarə vermədi".

İmam Müslim rəvayət edir ki, Hənzələ ibn Qeys, Rafe ibn Xədicdən torpağı icarə vermək haqqında soruşur. İbn Xədic deyir:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bizə torpağı icarə verməyi qadağan etdi. (Bu vaxt mən ondan) soruşmuşdum: "Bəs qızılla, yoxsa gümüşlə (icarə verilə

bilərmi)?” Dedi: “Qızıl və gümüşə gəlincə, bunda bir qəbahət yoxdur”.

Sual yaranır: Xam torpaq sahibinə (torpağı icarə verib) bundan haqq almaq nə səbəbə qadağan edilib? Səbəb ciddidir, onu varislik nöqteyi-nəzərindən izah etmək mümkündür. Belə ki torpağın məhsul bitirmə potensialı müqabilində kimsə kimsədən haqq tələb edə bilməz. Çünki bu potensialı torpağa Allah Təala bəxş edib. Kimsə bunu tələb edirsə, deməli, özünü Allah hesab edir. Beləliklə, istehsal etmədiyi şey müqabilində sahibkar qeyri-qanuni gəlir əldə etdiyi üçün faiz meydana çıxır. Qeyd edək ki, varislik mənasında şəxsi mülkiyyət birincilik hüququndan istifadə etməkdir; şəxsi mülkiyyət təbii resurslardakı istehsal xassəsi üzərində mütləq hüquqa sahib olmaq deyildir. Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yardarlığı qadağan edən hədislərini də bu mənada başa düşə bilərik.

## *b. Yardarlığın qadağan edilməsi*

Sabit ibn Həccaca istinadən İmam Əhməd rəvayət edir ki, Zeyd ibn Sabit demişdir:

“Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bizə müxabərəni qadağan etdi.” Ondan soruşdular: “Müxabərə nə deməkdir?” Dedi: “Müxabərə torpağı yarı, üçdə və ya dörddə bir (məhsul) qarşılığında götürüb (işlətməkdir)”.

Əbu Nəimə istinadən Əbu Davud rəvayət edir ki, Rafe ibn Xədic torpağı becərib əkin əkibmiş. Bir dəfə Rafe tarlasını sulayarkən Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* oradan keçirmiş. Soruşur: “Əkini kim əkib? Tor-

paq kimindir?” Rafe deyir: “Əkin də mənimdir, toxum da mənimdir, zəhmət də mənimdir. Məhsulun yarısı mənə, yarısı da filankəslərə çatacaq.” Peyğəmbər buyurdu: “Faizə yol vermisiniz. Torpağı sahiblərinə qaytar, xərcini al”.

Cabir ibn Abdullah *(Allah ondan razı qalsın!)* rəvayət edir ki, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* belə dediyini eşidib:

“Kim yardarlıqdan əl çəkməzsə, Allah və peyğəmbəri ilə savaşa hazır olsun”.

Son iki hədis Qurandakı faizlə əlaqəli ayələrlə eyni məzmundadır. Diqqəti o çəkir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yardarlığı mütləq şəkildə qadağan etmişdir. Əgər torpaq sahibi Allahın yaratdığı torpağın məhsuluna görə haqq almaq hüququna sahibdirsə, onda bu pulu ödəmənin əsaslandırılmış forması məhsulla olmamalıdır. Torpaq sahəsi çox məhsul verdikdə də belədir; bu vaxt daha çox əldə edirsən; az verdikdə isə az əldə edirsən. Təəccüblüdür ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buna icazə verməmiş, yardarlığı haram etmişdir. Bu, mülkiyyətdə “varislik” anlayışı ilə əlaqəlidir. Torpaq sahibi Allahın istehsal amillərinə “daxil” etdiyi təbii enerji, məhsuldarlıq xassəsi üzərində mülkiyyət hüququ tələb edə bilməz.

Deməli, kredit faizi, torpağı icarə haqqı və möhtəkirlik – bütün bunlar təbii resurs və potensialdan şəxsi gəlir əldə etmək vasitələridir. Varislik baxımından bu, istehsal amilləri üzərindəki bərabər paylardan daha çoxunu əldə etmək fikrinə düşməkdir. Fərz edək ki, fərdlərin istifadə etdiyi təbii resurslarda ayrı-ayrı paylar dövlət

tərəfindən vergi sistemi ilə bərabərləşdirilir. Güman edilir ki, müdaxiləyə ehtiyac qalmadan bu üsulla ədalət qoruyub saxlamaq mümkündür. Söhbət insanların həyatlarını tənzimləmək hüququna, öz güzəranlarını təmin etmək vasitəsi seçmək sərbəstliyinə müdaxilədən gedir.

Bəziləri iddia edə bilər ki, bütün bu hədislər yazımızın əvvəlində qeyd etdiyimiz Xeybər hədisi ilə qüvvədən salınıb. Təəccüblənirəm ki, İbn Həzm kimi alim də bu cür düşünür. Necə ola bilər ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* əvvəlcə bu kimi sövdələşmələri dəfələrlə faiz adlandırsın, Mədinədə müsəlmanlara bunu haram etsin, daha sonra məğlub düşmən üzündən bu fikrindən daşınsın?!

Bundan əvvəl də demişdim: Xeybər hədisi heç nəyi qüvvədən salmayıb, əksinə, ticarət və iqtisadiyyat meydanında başqa bir məsələ ilə əlaqəli qayda qoyub. Bu barədə sonra danışılacaqdır.

## *c. Pul qarşılığında torpağı icarə götürmək olar*

Əbu Davud rəvayət edir ki, Sə`d ibn əbu Vəqqas *(Allah ondan razı qalsın!)* demişdir:

"Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dövründə torpaqları arx kənarındakı və ondakı su ilə suvarılan əkin müqabilində icarəyə verirdik. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bunu bizə qadağan etdi, amma ona da icazə verdi ki, torpağı qızıl və ya gümüş müqabilində icarəyə verə bilərik".

Nəsai rəvayət edir ki, Hənzələ ibn Qeys əl-Ənsari demişdir:

"Rafe ibn Xədicdən qızıl və gümüş müqabilində torpağı icarə vermək haqqında soruşdum. Dedi ki, bunda qəbahət yoxdur".

İmam Buxari rəvayət edir ki, Hənzələ demişdir:

"Rafe ibn Xədicin belə dediyini eşitmişəm: "Mədinədə ən çox əkini olan biz idik: "bu hissə bizə, bu hissə də əkənlərə" – deyib torpağı icarə verirdik. Bəzən elə olurdu ki, hissələrdən biri məhsul verir, digəri isə vermirdi. Bizə bu qadağan olundu. Amma qızıl və gümüş müqabilində icarə qadağan edilmədi".

Nə üçün Peyğəmbər (Ona Allahın xeyir-duası və salamı olsun!) müəyyən vəziyyətlərdə xam torpaqların istənilən növ icarəsini haram etmiş, digər vəziyyətlərdə isə yardarlığa qadağa qoymuşdur? Və nəhayət, o, nə üçün pul qarşılığında torpağı icarə verməyə "hə" demişdir?

Deməli, pul müqabilində icarə vermək haqqında olan hədisləri diqqətlə araşdırmaq çox mühümdür. Hədislərdən məlum olur ki, söhbət müxtəlif növ torpaqlardan gedir. Hədislərdə xam torpaqlar nəzərdə tutulmur. Peyğəmbər istifadədə olan torpaqlardan söz açmışdır. Bu torpaqlara əmək sərf olunmuş, pul xərclənmiş, quyular qazılıb, arxlar çəkilmişdi və s. Əgər torpaq sahibi əmək sərf etdiyi torpaq sahəsini heç nə müqabilində müsəlman qardaşlarına versəydi, bu, ədalətsizlik olardı, özü də onun özünə qarşı ədalətsizlik olardı. Çünki sahibkar çəkdiyi zəhmətin səmərəsini görməlidir. Bu cür investisiya sahibkarın qanuni mülkiyyəti hesab olunur;

onun Allahın torpağa bəxş etdiyi təbii potensiala aidliyi yoxdur. Belə vəziyyətdə qiymət qabaqcadan müəyyən edilmiş miqdarda pulla olmalıdır. Bu cür vəziyyətlərdə yardarlığa yer qalmır. Belə vəziyyətdə yardarlıq sələm (faiz) deməkdir. Tərəflərdən biri, əksər hallarda, sahibkarın istifadəçiyə təqdim etdiyi xidmət və investisiyanın qiyməti əvəzinə almalı olduğu miqdar ilə müqayisədə ya çox, ya da az alacaqdır. İslam qarşı tərəfə – istər sahibkar olsun, istər yox – zülm etmək istəmir. Ədalət iqtisadiyyatın əsas məqsədi olmalıdır.

## *ç. Faiz haqqında ayələr*

Allah Təala buyurur:

"Sələm (müamilə, faiz) yeyənlər (qiyamət günü) qəbirlərindən ancaq Şeytan toxunmuş (cin vurmuş dəli) kimi qalxarlar. Bunların belə olmaları: "Alış-veriş də sələm kimi bir şeydir!" – dedikləri üzündəndir. Halbuki, Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram (qadağan) etmişdir. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı (sələmlər) onundur (ona bağışlanar). Onun işi Allaha aiddir. Amma (yenidən sələmçiliyə) qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!" (əl-Bəqərə, 275);

"Ey möminlər! Əgər, doğrudan da, iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən (faizdən) vaz keçin! (Onu borclulardan almayın!)

Əgər belə etməsəniz, o zaman Allaha və Onun peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin!

Yox, əgər tövbə etsəniz, sərmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar!" (əl-Bəqərə, 278-279).

Bəzi fəqihlərə görə, ayələrdəki qadağa ancaq kredit faizinə aiddir. Faizin bu forması islamdan əvvəlki dövrdə daha geniş yayılmışdı, daha zərərli idi. Müasir cəmiyyətlərdə isə faiz adətən kredit gəlirləri kimi izah edilir. Amma bu izahda yekdillik yoxdur. Faiz kredit və gəlir anlayışlarından daha geniş anlayışdır. Çünki islam cəmiyyətində faizi daha geniş fəlsəfi mənada başa düşürlər. Faiz, ayədə də deyildiyi kimi, ticarət deyildir. Ticarət məzmunlu və həqiqi xidmətdir, mənafelərin ədalətli mübadiləsidir. Faiz isə hər hansı bir şeyi az bir şeylə, yaxud heç nə ilə mübadilə etməklə sövdələşməkdir. Möhtəkirlik, xam torpağı icarə, kreditə görə gəlir götürmək buna misaldır.

İmam Buxari rəvayət edir ki, İbn Abbas demişdir:

"Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* nazil olmuş sonuncu ayə budur:

"Ey möminlər! Əgər, doğrudan da, iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən (faizdən) vaz keçin! (Onu borclulardan almayın!)

Əgər belə etməsəniz, o zaman Allaha və Onun peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin! Yox, əgər tövbə etsəniz, sərmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar!

Əgər sizə borclu olan şəxs çətin vəziyyətdə olarsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin! Əgər bilmək istəyirsinizsə, (borcu) ona sədəqə olaraq bağışlamağınız daha yaxşıdır!

Allaha tərəf qaytarılacağınız gündən qorxun! (O gün) hər kəsə gördüyü əməlin əvəzi veriləcək və (haqsız yerə) zülm olunmayacaqdır!" (əl-Bəqərə, 278-281)".

Bu ayələrdə faiz dedikdə nəyin nəzərdə tutulduğunu başa düşmək üçün onları istehsalın bütün amillərinə metodoloji qaydada toxunan digər ayə və hədislərlə müqayisəli şəkildə öyrənmək lazımdır. Ayənin "sələmdən qalan məbləğdən (faizdən) vaz keçin!" forması göstərir ki, əvvəllər haram edilmiş faiz formaları var imiş. Və ayədə müsəlman cəmiyyətində hələ də davam edən faiz əməliyyatı formalarından danışılır. Bu ayələrin nazil edilmiş son ayələr olmağı göstərir ki, faizin digər formaları mövcud imiş. Peyğəmbər də *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu formaları nəhayətində bütünlükdə qadağan etmişdir.

İzah edilməsi vacib başqa bir məsələ var. Bu, hissələrə və ya səhmlərə sahib olmaq məsələsidir. Belə ki hər hansı bir şəxs müəyyən bir işə pul yatırır, amma pul yatırdığı, qazanclı və ya zərərli çıxa biləcəyi işin özündə iştirak etmir.

İslam nöqteyi-nəzərinə, varislik anlayışına, Allahın cəmiyyətə bəxş etdiyi təbii resurs və imkanların bölüşdürülməsində nəzərə alınan ədalət və bərabərlik prinsiplərinə görə, səhmdar şəxslərin həmin resurs və imkanlarda paylarına düşəndən artıq məhsul (gəlir) tələb etmələri yolverilməzdir. Əks halda, bu da faizdir. Kapital, torpaq, (müxtəlif layihə formalarında istifadə edilən) təbii resurs və imkanlar baxımından miras ötürülmüş digər imkanlar da eyni mahiyyətdədir. Bu potensialı (imkanları) yaradan Allahdır. Elə isə hər kəs

onlardan eyni şəkildə istifadə etməlidir. Kim ki bu resurslardan istifadə edir, bununla yanaşı, əməyi və zəhmətinin əvəzini alır.

Varislik fəlsəfəsi faizin nə üçün haram edildiyini bizə izah edir. Bütün təbii imkanlar (potensial) şəxsi istifadəyə (tələbə) təhkim edilə bilməz. Fərdin bu potensialdakı payı (səhmləri) ümumi hakimiyyət orqanları tərəfindən cəmiyyətdəki konkret şəraitə uyğun şəkildə toplana və bölüşdürülə bilər. Lakin başa düşməliyik ki, faiz haram edildikdə kreditlər tənzimlənməli və zəmanət altına alınmalıdır. Bunun qarşılıqlı sığortalama müqaviləsi ilə həyata keçirmək mümkündür. Çünki kreditin dəyəri kreditorun mülkiyyəti hesab olunur. Sahibkarların öz pullarından və ya digər mülkiyyət formalarından birinci istifadə etmək hüququ vardır. Onlar var-dövlətlərini qanuni şəkildə xərcləyə və ya başqa məqsədlər üçün istifadə edə bilərlər. Allah Təala buyurur:

"...Bu bölgü ölən şəxsin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır..." (ən-Nisa, 11);

"Əgər sizə borclu olan şəxs çətin vəziyyətdə olarsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin!.." (əl-Bəqərə, 280).

Quranda kapitalın zəmanət altına alınması və sərf edilməsi məqsədilə kreditlərdən istifadə ilə əlaqədar qayda göstərilmişdir. Allah buyurur:

"Ey iman gətirənlər! Müəyyən müddətə bir-birinə borc verib aldıqda, onu yazın! Bunu (bu sənədi) aranızda bir nəfər katib ədalətlə yazsın! Katib gərək Allahın öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın, yaz-

sın! Borclu olan şəxs borcunu söyləyərək (deyə-deyə) yazdırsın və Rəbbi olan Allahdan qorxaraq ondan (borcdan) bir şey əskiltməsin. Əgər borclu ağılsız və zəifdirsə (qoca və ya uşaqdırsa), yaxud söyləməyə qadir deyilsə, o zaman gərək onun (əvəzinə) vəkili ədalətlə deyib (borcu) yazdırsın. Öz adamlarınızdan iki kişini də şahid tutun! Əgər iki kişi olmazsa, razı olduğunuz bir kişi ilə iki qadının şəhadəti kifayətdir. Əgər (qadınlardan) biri (şəhadəti) unudarsa, o birisi onun yadına salsın. Şahidlər (bu işə) dəvət olunduqları zaman boyun qaçırmasınlar. Az və ya çox olmasına baxmayaraq, borcu öz vaxtına qədər (nə müddətə verilmiş olduğunu) yazmağa ərinməyin! Sizin bu işiniz Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməniz üçün haqqa daha yaxındır. Lakin aranızda həmişə dövr edən aşkar (nəğd) ticarət zamanı onu yazmamağınız sizin üçün günah deyildir. (Hər halda) alış-veriş etdiyiniz vaxt şahid tutun! Ancaq katibə və şahidə zərər yetirilməsin. Əgər zərər yetirsəniz, əlbəttə, bu sizin üçün pis işdir. Allahdan qorxun! Allah (ehtiyacınız olan şeyləri) sizə öyrədir. Allah bütün işləri biləndir!” (əl-Bəqərə, 282).

Hər şəxs krediti sığortalada, yaxud hər kəs qarşı tərəfin krediti ödəmə imkanına etibar edə bilmir. Bu səbəbdən ortaq səhmləri (səhmlərdə müştərəklik) kapitala sahib olmayan, yaxud ticarət və ya istehsal riskinə gedə bilməyən fərdlərin mövcudluğu vəziyyətində pulu istifadəyə sövq edən vasitə kimi izah etmək mümkündür. Səhmdarlar həm kapital təqdim edə, həm də bu kapitalın necə sərf edilməyinə nəzarət edə bilərlər.

Bununla yanaşı, sahibkarlar məruz qala biləcəkləri zərəri balanslaşdırmaq üçün müəyyən vaxt ərzində gəlirin müəyyən hissəsindən istifadə etmək hüququna sahibdirlər. Nəticədə, səhmdarlar ya bütövlükdə, ya qismən qazanacaq, ya da zərərə düşəcəklər. Bu, bir neçə cəhətdən, təminatlı kreditlərə yaxındır. Belə kreditlərdə kreditor nə qazanır, nə də zərərə düşür. İslam iqtisadi sistemində, qarşılıqlı zəmanət və ya dövlət zəmanəti, yaxud səhmdə ortaqlıq tədbirləri vasitəsilə təminat altına alınmış kreditlər oxşar nəticələr doğurur. Eyni zamanda, onların birbaşa yekun qazanc və ya zərərləri ikinci dərəcəli olur.

Ədalətsizliyə yol verməmək, cəmiyyəti resurslardan istifadə etməkdən məhrum etməmək üçün münasib üsul və siyasi kurs müəyyənləşdirməliyik. Bu məqsədlə hər bir cəmiyyətin real vəziyyəti və şəraiti ətraflı şəkildə öyrənilməlidir.

Metodoloji yanaşma nümayiş etdirməyimiz və ya məzmunlu islam nöqteyi-nəzəri təqdim etməyimiz üçün rübubiyyət, tövhid, varislik və faiz anlayışlarını dərindən başa düşməliyik. Bu anlayışları nəzərə aldıqdan sonra sosial münasibətlərlə əlaqəli hadislərdə zaman və məkan amilinə toxunmalı, əlaqədar bütün ayə və hədisləri obyektiv şəkildə tədqiq etməliyik. Biz bütün istehsal amilləri və varisliyin fonunda onlardan istifadə arasındakı gizli əlaqəni üzə çıxarmalıyıq. Varlanmaq, pul yığmaq, sərvət və resurs möhtəkirliyi məqsədilə kapital və ya torpaqdan istifadə etmək olmaz. Varislik anlayışının düzgün tətbiqi qeyri-bərabər gəlirlərin meydana çıxmasına imkan verməyəcəkdir. Söhbət bir insanın

ağır işlərə daha çox baş vurmaq və fəallıq göstərmək istəyi və bacarığını aşıb keçən bərabərsizlikdən gedir. Allah Təala buyurur:

"İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar!

Şübhəsiz ki, (qiyamət günü) onun zəhməti (səyi, əməli) görünəcəkdir!" (ən-Nəcm, 39-40).

Məlumdur ki, indiyə qədər kimsə gəlirləri, təbii resursları və insan əməyini mütləq və tam şəkildə bir-birindən ayırmayıb. Yeni üsullara baxmayaraq, biz onları mütləq formada bir-birindən ayıra bilməyəcəyik. Amma bunu qarşımıza məqsəd qoymalıyıq. Müsəlmanlara vacibdir ki, iqtisadi siyasət kurslarını mümkün qədər ideala yaxın etsinlər.

Davamlı dəyişilən, dinamik cəmiyyətlərdə real olanla ideal olan arasındakı fərqi zəkatın məqsədlərindən biri kimi izah etmək olar.

İslama görə, zəkat, ümumiyyətlə, kasıb və möhtaclara verilir. Şübhə yoxdur ki, zəkat cəmiyyətin yoxsul təbəqəsi qarşısında vicdanın rahatlığını təmin edir. Bu yolla o, həqiqətlə ideal arasındakı ziddiyyətləri aradan qaldırır.

Müsəlmanlara hakim kəsilən iqtisadi istiqamət və sistem onları daha ədalətli iqtisadi model təqdim etməkdən yayındırmamalıdır.

İslam modeli ədalətli, üstün və stimullaşdırıcı bölüşdürməni, insan oğlunun şərəf-izzətinin qorunmasını kapitalist iqtisadiyyatı tədavüllərindən, dövlətlərin resursları hədər etməyindən, istehsal və bölüşdürmənin saxtalaşdırılmasından xilas olmağı məqsəd güdür. İs-

lam nöqteyi-nəzəri və sistemi cəmiyyətdəki bütün insanları yığım və hədər etmədən uzaq şəkildə, başlıca tələbatların ödənməsi üçün istehsal vasitələri ilə təmin edir.

Tövhid nöqteyi-nəzəri təkcə iqtisadiyyatda deyil, həm də həyatın, müsəlman cəmiyyətinin siyasi-ictimai tərəflərindəki bərabərlikdə öz əksini tapmışdır. Bu ruhu bədənlə, maddiyyatı mənəviyyatla, məscidi zavodla, dünyanı axirətlə birləşdirir, fərdi həyatla cəmiyyəti bütövləşdirir.

Cəmiyyətdə tövhid fəlsəfəsini qoruyub saxlamaq üçün başa düşməliyik ki, rəbbolma (rübubiyyət) və qardaşlıq eyni dəmir pulun iki üzüdür. Müsəlmanlar onlardan birinə əməl etməsələr, digərini həyata keçirə bilməyəcəklər. Və onlar iqtisadi sistemlərini "tövhid" adlandırmalıdırlar. Bunun əvəzinə, onlar həm özlərini arxayın salmaq, həm də bəşəri həmrəylik səciyyəsi daşıdığını təsdiqləmək üçün onu qardaşlıq iqtisadiyyatı adlandırırlar.

## *2.5. Cəmiyyət xüsusi mülkiyyəti yenidən bölüşdürmək hüququna sahibdir*

Yenidən bölüşdürməni mülkiyyətin istehsal və ya istehlak funksiyalarına tətbiq etmək mümkündür. İslam qardaşlığı anlayışının yenidən gündəmə gəlməsi, resursları bölüşdürmədə balansın qorunması, cəmiyyətdəki bütün insanların iradə azadlığının təmin edilməsi, ictimai ədalət – bütün bunlar zəruri sayıldıqca hər iki forma icazəlidir, tələb olunandır. Müsəlman cəmiyyəti ədalətli

olmalı, insan zəhmətini, yenidən bölüşdürülən resurslara yatırdığı kapitalı qiymətləndirməlidir. Cəmiyyət fərdin iradə azadlığını qəbul etdirib gücləndirmək məqsədilə ədalət prinsipini özünə şüar bilməli, inkar yolunu tutmamalıdır. Cəmiyyət onu da dərk etməlidir ki, yenidən bölüşdürmə həmişə asan və ya istənilən həll yolu deyildir. İnsanların çoxu xüsusi mülkiyyətlərinin yenidən bölüşdürülməsindən əsəbiləşirlər. Gəlir və mülkiyyətin ədalətli bölüşdürülməsini təmin etmək üçün vacib sayılan üsulların seçilməsində cəmiyyət aktivlik göstərməlidir. Cəmiyyət yenidən bölüşdürmə əməliyyatlarının təkrarlanmasından mümkün qədər uzaq durmalıdır. Uca və Pak Allah buyurur:

"Allah Öz Peyğəmbərinə (fəth olunmuş) məmləkətlərin əhalisindən (dinc yolla) verdiyi qənimət Allaha, Peyğəmbərə, (Məhəmməd əleyhissəlama yaxın olan) qohum-əqrəbaya, yetimlərə, yoxsullara və (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara) məxsusdur. Bu ona görədir ki, (həmin mal-dövlət) içərinizdəki zənginlər arasında əldən-ələ dolaşan bir sərvət olmasın (ondan yoxsullar da faydalansın). Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir.

(Bu qənimət) yurdlarından qovulub çıxardılmış, Allahdan mərhəmət və riza diləyən, Allaha və Onun Peyğəmbərinə kömək edən yoxsul mühacirlərə məxsusdur. Onlar (imanlarında, sözlərində və işlərində) doğru olan kimsələrdir!

Onlardan (mühacirlərdən) əvvəl (Mədinədə) yurd salmış və (Məhəmməd əleyhissəlama qəlbən) iman gətirirmiş kimsələr (ənsar) öz yanlarına (şəhərlərinə) mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd (qəzəb) duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. (Allah tərəfindən) nəfsinin xəsisliyindən (tamahından) qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə (Cənnətə) qovuşanlardır!" (əl-Həşr, 7-9).

İndi isə qardaşlıq haqqında hədislərə nəzər salaq. Bu hədislər bizə zülmə uğrayan müsəlmanlar mal-mülklərini tərk edib Məkkədən Mədinəyə köçdüklərində Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* tətbiq etdiyi siyasi kursu izah edir.

Nəsai rəvayət edir ki, Ənəs ibn Malik demişdir:

"Mühacirlər dedilər: "Ey Allahın elçisi, ənsar nə çox savab qazanır. Bu insanlar qədər comərd və xeyirxahını görməmişik. Var-dövləti çox olan əlindən gələni edir, az olan da fədakarlıq göstərib kömək əlini uzadır. Bütün məişət ehtiyacımızı təmin edib bizi var-dövlətlərinə ortaq tutdular." Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* soruşdu: "Onlara təşəkkür etmirsinizmi? Onlar üçün (Allaha) dua etmirsinizmi?" Dedilər: "Əlbəttə ki, edirik." Peyğəmbər buyurdu: "Bununla siz də savaba ortaq olursunuz".

Əbdürrəhman ibn Zeyd ibn Əsləm rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Mədinə müsəlmanlarına deyibmiş: "Qardaşlarınız var-dövlətləri və ailələrini (Məkkədə) qoyub gəlmişlər... Elə isə onlara kömək edin, onları məhsulunuza ortaq tutun".

Əbu Davud rəvayət edir ki, Peyğəmbər Bəni-Nəzir müharibəsi vaxtı (əldə edilən) qənimətlərin böyük hissəsini mühacirlərə vermiş (onların arasında bölüşdürmüş), iki möhtac şəxs xaric, ənsara heç nə verməmişdi...".

İmam Buxari rəvayət edir ki, Ənəs ibn Malik demişdir:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Bəhreyn torpaqlarından iqta ayırmaq qərarına gəlmişdi. Ənsar dedi: "Bizə verdiyin iqta torpaqlarından mühacir qardaşlarımıza da ver".

Əbu Səid əl-Xudriyə istinadən İmam Müslim və Əbu Davud rəvayət edirlər ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

"Kimin artıq heyvanı varsa, aparıb heyvanı olmayana versin. Kimin artıq azuqəsi varsa, aparıb azuqəsi olmayana versin".

(Ravi deyir:) "Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* artıq malların adlarını o vaxtadək çəkdi ki, artıq mallara layiq olmadığımız gümanına düşdük".

Əbu Musa əl-Əş`əriyə istinadən İmam Buxari rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

"Əş`ər qəbiləsinin üzvlərinin müharibədə azuqələri tükəndikdə və ya Mədinədə ailələrinin yeməyi azaldıqda özlərində olanları bir paltarın üstünə yığır, bir qabla öz aralarında bərabər bölüşdürürlər. Onlar – məndən, mən də onlardanam".

Yuxarıdakı beş hədis cəmiyyətdə ədalət və qardaşlığı təmin edib, zəruri şəraiti nəzərə almağın müxtəlif üsullarını izah edir. Mədinəyə köçdüklərində mühacirlərə

dərhal "vətəndaşlıq" verilmiş, bərabər hüquqlar tanınmışdı. Onlar qaçqın düşərgələrində qalmamış, ianələrlə dolanmamışdılar. Mədinəlilər öz resurslarını könüllü surətdə onlarla bölüşmüş, onların tələbatlarını təmin etmiş, şərəf-izzətlərini layiqli şəkildə qorumuşdular. Onlar mühacirlərə dolanışıqlarını təmin etmələri üçün iş imkanları yaratmışdılar. Əgər mühacirlərdən kimsə əkinçiliyi bacarırdısa, onu torpaq sahəsi ilə təmin edirdilər; bazarda ticarət etməyi bilirdisə, bazarda işə başlamaq üçün ona xeyir-dua verir, onu alqışlayırdılar. Bu işlərdən heç birini bacarmayana isə mədinəlilər kömək əli uzadır, var-dövlətlərini onunla bölüşdürürdülər.

Mədinəlilər mühacirlərə verdikləri torpaq sahələrini inkişaf etdirdikləri üçün Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* torpaqları əsil sahiblərinə – mədinəlilərə qaytarmış, yeni resursların (qənimətlərin) böyük hissəsini mühacirlərə və ehtiyac sahibi mədinəlilərə vermişdi. Aydındır ki, bu tədbirlər fərdlərin sahib olduqları istehsal amillərini yenidən bölüşdürmək üçün yürüdülən müdrik siyasəti ifadə edir. Məqsəd cəmiyyətin bütün fərdlərinə yaşamaq üçün lazım olan resursları verməkdir. Bu, həmçinin mülkədarların əməyinin və torpaqları inkişaf etdirmək üçün yatırdıqları kapitalı təminat altına almağa verilən diqqəti ifadə edir.

Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* siyasi addımları təhlükə və fəlakətlərə məruz qalan cəmiyyətlər üçün yolgöstərici prinsip və təlimlər rolunu oynayır. Məlum olur ki, hökumət və cəmiyyətin belə vəziyyətlərdə qiymətlərə nəzarət etmək, əsas əmtəələri nizama sal-

maq, sərvətləri bölüşdürmək, istehsal amillərindən istifadə etmək hüququ vardır. Bütün bunlar islamın varislik anlayışının aksiomatik nəticəsidir. İslam bu üsulla cəmiyyəti vahid orqanizm vəziyyətinə gətirir. Bu cəmiyyətdə hər kəsin yaşamaq vasitələrini əldə etmək hüququ vardır. Heç kəs başqasını bu hüquqdan məhrum edə bilməz. Cəmiyyətdə başqalarını yaşamaq hüququndan məhrum edən şəxs, əslində, özünü yaşamaqdan məhrum etmiş, öz xüsusi mülkiyyət hüququna yox demişdir. Çünki islamın varislik anlayışına görə, onun xüsusi mülkiyyəti sayılan şey, əslində, cəmiyyətin mülkiyyətidir.

Yenidən bölüşdürməni həm işlədilmiş təbii resurslarla məhdudlaşdırmaq, həm də fərdi mülkiyyət və yığımlara şamil etmək mümkündür. Təbii ki, bu vaxt cəmiyyət və fərdlərin əsas tələbatları nəzərə alınmalıdır. Qeyd edək ki, bu addımlar islamın tövhid, varislik və qardaşlıq anlayışlarına uyğundur. Odur ki bu işdə ədalət və məşvərət prinsiplərinə qəti surətdə əməl edilməlidir.

## *2.6. Vərəsəlik*

Vərəsəlik miras və mülkiyyətin qohumlar arasında bölüşdürülməsidir. Bunun üçün qaydalar və qurumlar mövcuddur. Müsəlmanlara görə, vərəsəlik sərvət və resursların cəmiyyətdə ədalətli və sistemli şəkildə bölüşdürülməsini məqsəd güdür. Pak və Uca Allah buyurur:

“Ata, ana və qohumların (vəfat etdikdə) qoyub getdikləri maldan kişilərə və qadınlara pay düşür. Həmin

malın azından da, çoxundan da (bunlara veriləcək) hissə müəyyən edilmişdir" (ən-Nisa, 7).

İslamın vərəsəlik qaydalarını araşdırdıqda nəzərə almalıyıq ki, vərəsəliyin digər məsələlərlə, o cümlədən sərvət və resursların yenidən bölüşdürülməsi, fərdin ailə və qohumları qarşısındakı məsuliyyəti ilə əlaqəsi vardır. Bu qaydalar insanın təbii ehtiyaclarının ödənməsinə, nəslini davam etdirmə istəyinə uyğundur. İslamın vərəsəlik qanunlarını dərk etmək üçün kişi və qadının psixoloji və bioloji təbiətini, onların hüquqi məsuliyyətini düzgün izah etmək lazımdır.

## *2.7. İstehsal amillərinin beynəlxalq mübadiləsi*

Yeddinci prinsip beynəlxalq iqtisadiyyat və bununla əlaqədar olaraq islamın təsis etdiyi qaydalar haqqındadır. Kapitalın, torpağın və digər istehsal amillərinin mübadiləsi hansı cəhətə görə daxili və ya milli iqtisadiyyatın məqsəd və üsulundan fərqlənir? Nəticələrin fərqi nədən ibarətdir və buna ədalətli münasibət necə olmalıdır?

Məlum məsələdir ki, təbii resurs və istehsal amilləri beynəlxalq sərhədlərdən keçirildikdə xərc tələb edir, ya da gəlir gətirir. Kredit (borc) alan ölkə və ya dövlət həmin resurs və ya amillərdən istifadə edə bilmək üçün ödəmə etməlidir. Qardaşlıq prinsipi və eyni cəmiyyətdə yaşamaq baxımından faizin bütün formalarının, ədalətsiz şəxsi istəklərin, faizli kreditlərin qadağan edilməsinin səbəbini başa düşməyimiz çox mühümdür.

Axı cəmiyyətdə hər kəs bərabərdir; onların resurslar üzərində pay sahibi olmaq hüququ vardır. Varislik və qardaşlıq anlayışları bizə izah edir ki, bu resurslardan daha çox pay tələb etmək ədalətdən uzaqlaşmaqdır, faiz deməkdir.

Digər tərəfdən, beynəlxalq iqtisadiyyat baxımından məsələ tamamilə başqa cürdür. Beynəlxalq iqtisadiyyatda cəmiyyətin bütün üzvləri birbaşa və ya dolayısı ilə iqtisadi fəallıq göstərir, mövcud resurslardan daha səmərəli və intensiv istifadə edirlər.

Başqa cəmiyyətin resurslarından istifadə edən əcnəbi cəmiyyətlərə gəlincə, kreditor cəmiyyət borc verdiyi istehsal resursları və sərvətlərdən özgələrin istifadə etməsindən heç nə əldə etmir. Kreditor tərəf borc verdiyi resurslardan faydalanmaq üçün digər cəmiyyətin bu resurslardan əldə etdiyi mənfəət və istifadənin qarşılığında gəlir əldə etməlidir. Səhmlərdə və yardarlıqda maraqlı olmaq mənfəəti bölüşdürməyin ideal vasitələrindəndir. Bu və ya digər üsuldan istifadə resursların növündən, mövcud şəraitdən asılıdır.

Səhmləri əcnəbilərə satmaq əvəzinə, onlardan kredit yolu ilə alınan əcnəbi kapitalın faydalı cəhətlərindən biri budur ki, kredit götürən ölkənin daxili iqtisadi siyasəti onların nəzarətinə keçmir. Bu yolla yerli və beynəlxalq miqyasda eyni məqsəd və ideyalar həyata keçirilir. Burada məqsəd digər fərdlər və cəmiyyətlər qarşısında bu və ya digər fərd və cəmiyyətin hüququnu təminat altına almaqdır. Bu, Peyğəmbərlə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Xeybər yəhudiləri arasında bağlanmış yardarlıq müqaviləsinin aydın izahıdır.

Xeybər hədisini beynəlxalq ticarət baxımından təfsilatı ilə araşdırdıqda görürük ki, yürüdülən siyasət dinamik və hərtərəflidir. Həmçinin bu siyasətdə gələcəkdə meydana çıxacaq yeni şəraitə uyğunlaşa bilmək məsələsi də nəzərə alınmışdır. Həmin hədis budur:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Xeybərə çatdıqda yəhudiləri oradan çıxarmaq istədi. Həmin vaxt torpaq Allahın, peyğəmbəri və müsəlmanların idi. Odur ki (Peyğəmbər) yəhudilərə oradan çıxarmaq qərarına gəlmişdi. Yəhudilər Peyğəmbərdən *(Ona Allahın xeyir-duası və salamı olsun!)* xahiş etdilər ki, onları torpaqlarında saxlasın, onlar da (əkinçilik) işlərini davam etdirsinlər, müsəlmanlara da məhsulun yarısını versinlər. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* onlara dedi: "Sizi burada istədiyimiz müddətəcən saxlayırıq". Yəhudilər bu ərazilərdə Ömər *(Allah ondan razı qalsın!)* onları oradan çıxaranadək qaldılar".

İbn Ömər *(Allah ondan razı qalsın!)* demişdir:

"Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Xeybər yəhudilərinə işlədib (məhsul götürsünlər deyə) Xeybər xurmalıqlarını və ərazilərini vermişdi. (Əvəzində) əldə etdikləri məhsulun yarısı Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* çatacaqdı".

Hədisdən məlum olur ki, bir tərəfdə Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)*, digər tərəfdə isə məğlub olmuş düşmən – Xeybər yəhudiləri vardı. Yəhudilərin məğlubiyyətindən sonra Xeybər islam dövlətinin mülkiyyətinə keçmişdi. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Xeybər yəhudiləri ilə həmin vaxt islam dövlətinin mülkiyyəti sayılan əkin torpaqlardan alınacaq məhsulun bölüşdürülməsi barədə razılığa gəlmişdi. Bu müqavilə

islam dövlətində yəhudilərin deportasiyası qərara alındığı vaxtadək qüvvədə qaldı. İkinci xəlifə Həzrət Ömərin dövründə yəhudilər Ərəbistandan şimala, uzaq ərazilərə sürgün edildilər.

Xeybər yəhudiləri ilə bağlanmış yardarlıq müqaviləsi xarici (beynəlxalq) iqtisadiyyatın bir məsələsini – ədalətli sövdələşməni ifadə edir. Torpağın qarşılıq olmadan düşmən xalqa verilməsinə səbəb olacaq heç nə yox idi. Bu yardarlıq müqaviləsi hər iki tərəf üçün ədalətli sövdələşmə idi. Torpağın verdiyi məhsul az da olsa, çox da olsa, praktik şəkildə bölüşdürülürdü.

Aydındır ki, Xeybər hədisi ilə Mədinənin müsəlman cəmiyyəti daxilindəki faiz, icarə haqqı və yardarlıqla əlaqəli digər hədislər arasında heç bir ziddiyyət yoxdur. Daxili və xarici iqtisadiyyat baxımından proseslə nəticələri arasındakı fərqi başa düşsək, bu məsələ öz izahını tapacaqdır. O da aydındır ki, iqtisadiyyatın bu iki sahəsi arasındakı fərqi görə bilməmək "nəsx" yanlışlığına səbəb olmuşdur.

# *Əlavə 1*
# Təbii resursların bərabər bölüşdürülməsi haqqında

Ancaq iki üzvü: A və B üzvləri, 100 kvadrat kilometrlik ərazidə təbii resursları olan cəmiyyət fərz edək. Əgər bu iki şəxs qəbul etsə ki, istifadə etsinlər deyə torpağı yaradan Allahdır, onlar eyni cəmiyyətin üzvləridir, Allah onları yaradıb, aralarında heç bir fərq qoymur, onda resurslar ədalətlə bölüşdürüləcək, hər kəsə 50 kvadrat kilometrlik ərazi düşəcəkdir.

Vəzifə baxımından görürük ki, hər iki şəxsin qəbul etdiyi qərarlar həmin cəmiyyətdə istehsalın ümumi nəticəsinə təsir göstərəcəkdir. Onlardan heç kəsin haqqı çatmır ki, həm özünün, həm də digər tərəfin sahib olduğu resurslara zərər verəcək iş görsün. Bununla da, mülkiyyət eyni vaxtda həm şəxsi, həm də ümumi səciyyə daşıyır.

İşləmək bacarığı şəxsdən şəxsə dəyişir; elə insanlar var ki, başqalarından güclü və ağıllıdırlar. Bəzi insanlar da ya yaşlı olduqlarından, ya da anadangəlmə qüsurlar səbəbi ilə daha az bacarığa sahibdirlər və s. Fərz edək ki, misalımızdakı B ancaq 30, A isə özünün 50 kvadrat kilometrlik torpaq payı ilə yanaşı əlavə 20 kvadrat kilometrlik ərazini də əkməyə qadirdir. Onların həm zəhməti, həm də qərarları cəmiyyətdə yekun istehsalın kəmiyyəti və keyfiyyətinə davamlı şəkildə təsir göstərəcəkdir.

Belə vəziyyətdə gəlir necə bölüşdürülməlidir? Əgər A yetmiş kvadrat kilometrlik ərazidən götürdüyü gəliri özündə saxlayıb, B-yə heç nə verməzsə, onda sonuncu ona aid 20 kvadrat kilometrlik ərazini A-ya verməz. Əgər 20 kvadrat kilometrlik ərazi əkilməzsə, nə A, nə də B ondan fayda götürməyəcəkdir. Belə olan təqdirdə, yaradılma qayəsinə zidd olaraq, resurslardan sui-istifadə olunacaqdır. Yeganə ədalətli bölüşdürmə 20 kvadrat kilometrlik ərazinin gəlirini A və B arasında bölüşdürməkdən ibarətdir. Belə ədalətli bölgü zamanı birinci tərəf zəhmətinin mükafatını alır, ikinci tərəfə isə təbii resurslardan payına düşəcək hissə çatır. Çünki sonuncunun 20 kvadrat kilometrlik ərazisi əkinçiliyə yararlıdır. Deməli, hər iki şəxsə resurslardan əldə edilən gəlirin yarısı çatır. Halbuki onlardan birinin işləmə bacarığı 70, digərininki isə 30 faizdir. Belə vəziyyətdə bu, hər iki tərəf üçün ən münasib olanıdır. Çünki onlar istehsal və bölüşdürmə vəzifəsini ədalətli şəkildə, əməkdaşlıq çərçivəsində icra etməyi bacarmışlar.

Sırf iqtisadi nöqteyi-nəzərdən istehsal amillərinə sahib olmaq istehsal və cəmiyyətdə davamlılıq və stabilliyi məqsəd güdür. Məsələ istehsal amillərindən istifadədə birincilik məsələsidir, başqa şey deyildir. Biz yaxşı başa düşməliyik ki, islama görə mülkiyyət digər sistemlərin mülkiyyət anlayışından fərqlənir.

Müsəlmanlar tövhid (bərabərlik) və qardaşlığı (əməkdaşlıq) insan təbiətində kök salmış əsas anlayışlar olaraq qəbul edirlər. Bu iki anlayış bütün bəşəri qurumlarda, o cümlədən xüsusi mülkiyyət təsisatında öz əksini tapmalıdır. Mütləq xüsusi mülkiyyət isə kapitalizmə aid

anlayışdır, islamın bərabərlik və əməkdaşlıq prinsipləri ilə üst-üstə düşmür.

Təbii resurslara tam bərabər şəkildə sahib olmağa gəlincə, bu, həmin resursların cəmiyyətin fərdləri arasında yenidən təkrar-təkrar bölüşdürülməsini tələb edir. Təbii ki, bu hal iqtisadi fəaliyyətin iflic olmağına, sosial münasibətlərin korlanmasına aparıb çıxaracaqdır. Bu məsələdə məntiqli alternativ budur ki, əvvəlcə, davamlı yenidən bölüşdürmə işindən uzaq durulsun, resursların xüsusi mülkiyyətinə icazə verilsin, – bu hal stabilliyi təmin edəcəkdir. Daha sonra təbii resurslara aid gəlirlərin həmin hissəsi cəmiyyətin fərdləri arasında bərabər şəkildə bölüşdürülür – bu da bərabərlik və ədaləti təmin edəcəkdir.

Hökumət və cəmiyyət yeni texnologiyaların köməyi ilə əmin olmalıdır ki, cəmiyyətin hər bir fərdi, sahib olduğu resursların keyfiyyəti, işində istifadə etdiyi resursların kəmiyyəti nə olursa-olsun, əməyi ilə yanaşı, Allahın bütün cəmiyyətə bəxş etdiyi təbii resurslara aid gəlirdə bərabər pay əldə edir. Allah Təala buyurur:

“Evlənməyə qüvvəsi çatmayanlar (maddi imkanı olmayanlar) Allah öz lütfü ilə onlara dövlət verənə qədər iffətlərini qoruyub (özlərini zinadan) saxlasınlar. Kölələrinizdən mükatəbə etmək (əvvəlcədən bağlanılmış yazılı müqaviləyə əsasən müəyyən məbləğ pul qazanıb ağasına vemək şərtilə köləlikdən azad olmaq) istəyənlərlə - əgər onlarda bir xeyir (müqavilədəki şərtlərin yerinə yetirilməsi üçün qüdrət) görürsünüzsə - mükatəbə edin. Onlara Allahın sizə verdiyi maldan verin. (Zəkatdan onlara o qədər verin ki, özlərini satın

alıb azad edə bilsinlər). Əgər cariyələriniz ismətlərini qoruyub saxlamaq istəsələr, fani dünya malı əldə etmək xatirinə onları zinaya məcbur etməyin. Kim onları (cariyələri zinakarlığa) məcbur edərsə, (bilsin ki) onların bu məcburiyyətindən sonra, əlbəttə, Allah (zinakarlığa vadar olanları) bağışlayar, rəhm edər" (ən-Nur, 33);

"Mallarında da dilənçinin və (abrına qısılıb dilənməyən) yoxsulun haqqı (payı) var idi" (əz-Zariyat, 19).

# *Əlavə 2*
# Bölüşdürməyə dair qeydlər

## *a. Bölüşdürmənin vacib şərtləri*

Bölüşdürmədə başlıca məqsəd ədaləti və fəallığı təmin etmək, yoxsulların yaşayış səviyyəsini yaxşılaşdırmaq, texnologiya sahəsində yeniliklər etməyə həvəs yaratmaqdır.

Cəmiyyət və ümumi idarəçilik sabit və dinamik iqtisadi həyatı, insanların öz əmtəələrini bir-birinə satdığı, cəmiyyətin enerji və imkanlarının qiymətləndirilib tənzimlənməsi məsələsində sərbəst şəkildə öz fikirlərini ifadə etdikləri azad bazarı qoruyub saxlamalıdır.

Cəmiyyət düzgün tənzimlənən tələb və təklifi alqışlayır. Fırıldaq və kələkbazlıq ehtiva edən müqavilə və sövdələşmələr ləğv edildikdə, bazarda defisit aradan qaldırıldıqda obyektiv qiymətlər və ədalətli bazarlar yaranır. Bu isə əsasən, fəal media, statistikaların aparılması, ciddi yoxlama, cəmiyyətin imkanları və resurslarına dair araşdırmalar aparmaqla mümkündür. Hər bir halda, defisit vəziyyəti (cəmiyyət və ya bazara) hakim olarsa, ümumi idarəçilik müdaxilə etməli, resurslar üzərində cəmiyyətin hüququnu qorumalı, əmək və gəlir arasında balansın təmininə kömək etməlidir.

## *b. Elmi kəşflər*

Araşdırma və elmi kəşflər inkişafla müşayiət olunur, cəmiyyətin əsas fəlsəfəsinə əngəl yaratmadan, mənfəəti təmin edir. Gücün bu yeni mənbəyi cəmiyyətin mənfəəti üçün inkişaf etdirilməli, nəzarətdə saxlanılmalı, faizin qeyri-ənənəvi forması kimi çıxış etməməlidir.

Bildiyimiz kimi, insanların çoxu yaxşı tədqiqatlar apara bilirlər, amma avadanlıq və pula ehtiyacları vardır. Cəmiyyət bu cür elmi kəşflərə imza atan şəxsləri lazım olan hər bir şeylə təmin etməlidirlər.

Bu və ya digər alimin apardığı tədqiqatlar mümkündür ki, dərhal nəticə verməsin. Yəni, tədqiqatlar ya müsbət nəticə verəcək mahiyyətdə deyildir, ya tamamlanmamışdır, ya bu tədqiqatçı adi şəxsdir, ya da biznes aləmində başqaları onun əməyini sui-istifadə etmişlər. Bəzən də bu və ya digər alim elə bir kəşfə imza atır ki, gözləmədiyi miqdarda gəlir əldə edir. Bəlkə də, bunun onun çəkdiyi zəhmətin keyfiyyət və kəmiyyəti ilə əlaqəsi yoxdur; cəmiyyətin vəziyyəti və şərait həmin kəşfin geniş istifadəsinə zəmin yaradır.

Məlumdur ki, təbii qanunları, təbiət qüvvələrini üzə çıxarmaq icadçıya bu qüvvələr üzərində möhtəkirlik etmək səlahiyyəti vermir. Əgər belə olsaydı, onda alovu ilk dəfə kəşf edən, neftdən istifadə edən, atomdan enerji alan alimlər lazımi haqq almadıqca başqalarına kəşf etdiklərindən istifadə haqqı tanımazdılar.

İqtisadiyyatda islam nöqteyi-nəzəri tətbiq edilmədikdə görürük ki, müxtəlif cəmiyyətlərdə icadçı-

ya fərqli imtiyazlar tanınır. Bəzi cəmiyyətlərdə imtiyazda nəyin göstərilməsi haqqında aydın təsəvvür olmadan 10, 15, 20... illiyinə möhtəkirliyə icazə verilir. İslam cəmiyyətində isə icadçıya mükafat (patent) onun üzə çıxardığı enerji növünə görə deyil, əksinə, kəşfi üçün çəkdiyi zəhmət və əməyə görə verilir.

Cəmiyyət tədqiqatlara, elmi kəşflərə təşviq edən ümumi qurumlar təsis etməli, (icadlara görə) faizsiz obyektiv qiymətin ödənilməsinə şərait yaratmalıdır. Belə qurumların kəşfi satın alıb, xalqın istifadəsinə verməsi lazımdır.

Beynəlxalq miqyaslı elmi kəşflərin qiymətləndirilməsi çəkilən zəhmətə müvafiq olmalıdır. Beynəlxalq istismara son qoymaq üçün müsəlmanlar bu mövqenin dəstəklənməsinə çağırış etməlidirlər. Bunun üçün eyni məqsədlə yaradılmış beynəlxalq qurumlardan kömək istəmək mümkündür.

### c. Məvaciblər

Yaxşı olardı ki, mövsümi olaraq təkrarlanan məvacib "təlatümlər"ini stabilləşdirmək üçün müsəlman cəmiyyətində maaşları təminat altına alan qurumlar (sığorta qurumları) yaradılsın. Bu isə işçilərlə əməyi təminat qurumu arasında bağlanmış müqavilələrlə həyata keçirilə bilər. Bu müqavilələrdə göstərilir ki, gələcəkdə zərərləri aradan qaldırmaq məqsədilə əmək haqqı imtiyazları azaldılsın. Yenidən tərbiyə etmək, yenidən təlim vermək əmək haqlarının stabilləşməsində mühüm rol oynayır.

Məccani və ya aşağı qiymətə xidmət təqdim edən ümumi qurumlarda işçiləri əməyə görə təsnif etmək, azad bazardakı oxşar işlərlə müqayisə əsasında ədalətli əmək haqqı ödəmək lazımdır.

Cəmiyyət qiymətləri və ədalətli mübadilə şərtlərini müzakirə etmək üçün zavod konsernlərinə, sənaye və istehlakçılar birliklərinə kömək göstərməlidir.

Baş İdarəçilik əmək haqqı danışıqlarının aparılmasına, sənaye gəlirlərinin bölüşdürülməsinə, ədalətli bazarın qorunub saxlanmasına, təbii qüvvələri və əmək haqlarına dəyişikliyin edilməsinə ehtiyacın olduğu ümumi şəraitin qiymətləndirilməsinə kömək edəcək texniki məhkəmələr təsis etməlidir.

# İslam iqtisadiyyatı nəzəriyyəsi (II)

*(Tövhid və qardaşlıq iqtisadiyyatı: fəlsəfə, müasir kontekstdə məfhumlar və təkliflər)*

# Mündəricat


1. Üsullar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 68
*1.1. Peyğəmbərin iqtisadi siyasəti və yaşadığı dövrün iqtisadi xüsusiyyətləri. . . . . . . . . . . . . . . . . . . . . . . 68*
*a. İltizam hissi və fədakarlıq. . . . . . . . . . . . . . . . . . . . . 70*
*b. Torpaq sahələrini icarə verməyin qadağan edilməsi . . . . . 71*
*c. Var-dövlət və kapitaldan (kreditdən) faiz əldən etməyin qadağan edilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . 71*
*ç. Səhmdarlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 72*
*d. Yaxşı idarə olunan, etik bazar sistemi . . . . . . . . . . . . 73*
*e. Sərvət və resursların yenidən bölüşdürülməsi . . . . . . . . . 74*
*ə. Zəkat . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75*
*1.2. Müasir cəmiyyətin iqtisadi xüsusiyyətləri . . . . . . . . . . 76*
*1.2.1. Topdan istehsal və əmək bölgüsü . . . . . . . . . . . . . . 77*
*1.3. Müasir vasitələr və texnika. . . . . . . . . . . . . . . . . . . 78*
*a) Bank sistemi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 79*
*b) Sığorta. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 80*
*c) Vergilər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81*
*ç) Milliləşdirmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 82*
2. Üslub və istiqamətlərə dair təkliflər . . . . . . . . . . . . . 83
*2.1. Tərbiyə, təlim və informasiyanın islam qurumları . . . . . 83*
*2.2. Mütərəqqi və professional ictimai sistem və ümumi idarəetmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 84*
*2.3. Əmanətlər və istehsalçı kapitala islam sığortası . . . . . . 85*
3. Əsaslara qayıdış: təbii resursların bərabər şəkildə bölüşdürülməsinə dair . . . . . . . . . . . . . . . . . . . . . . 92
4. Son . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 98
5. Digər mülahizələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . 99

# 1. Üsullar

Birinci hissədə islam iqtisadiyyatının əsas anlayışları və prinsiplərinə toxunmuşduq. Məqaləmizin ikinci hissəsində islam nöqteyi-nəzərinin bünövrəsinin atılması və ondan istifadə yolları haqqında danışacağıq. İlk növbədə, yaşadığı dövrdə Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yürütdüyü iqtisadi kursun mahiyyətini izah etməyə çalışacağıq. Bununla yanaşı, müasir dünyamızın əsas iqtisadi xüsusiyyətlərini müəyyən etmək, eyni məqsədlərin həyata keçirilməsində Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* iqtisadi kursundan necə istifadə etmək haqqında fikirləşəcəyik.

## *1.1. Peyğəmbərin (Ona Allahın xeyir-duası və salamı olsun!) iqtisadi siyasəti və yaşadığı dövrün iqtisadi xüsusiyyətləri*

Mədinə şəhərində Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* atdığı addımları başa düşmək üçün həmin dövrün iqtisadi xüsusiyyətlərini düzgün qiymətləndirmək lazımdır. Bu bizə iqtisadiyyatda islam nöqteyi-nəzərini gündəmə gətirmək üçün həmin addımların mənasını dərk etmək imkanı verəcəkdir.

Peyğəmbər dövrünün tarixi tədqiqi göstərir ki, Mədinədə iqtisadi həyatın aşağıdakı xüsusiyyətləri olmuşdur:

a) Şəhərin iqtisadiyyatı aqrar (əkinçilik, kənd təsərrüfatı) idi. Məhsullar fərdi istifadə üçün, həm də az miqdarda istehsal edilirdi.

b) Bu iqtisadiyyat özünün yüksək iltizam dərəcəsi və fədakarlığı ilə seçilirdi.

Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dövründə müsəlman cəmiyyəti ənsardan[7], Övs və Xəzrəc qəbilələrindən, Məkkədən köçüb gəlmiş mühacirlərdən təşəkkül tapmışdı. Ənsarın böyük hissəsi əkinçi olub, torpaq sahələrini bəsit alətlərdən istifadə etməklə əkib becərirdilər. Mühacirlərin əksəriyyəti isə tacir idi, karvanlar vasitəsilə Mədinəyə mal gətirib satırdılar. Həmin vaxtlar iqtisadiyyat üçün topdan istehsal səciyyəvi deyildi. İstehsal əl əməyinə əsaslandırdı. Alətlər və qurğular, xüsusən suvarma məqsədilə istifadə olunurdu. İşçi qüvvəsi və topdan istehsal imkanları inkişaf etməmişdi.

İqtisadiyyata təsir göstərən mühüm amillərdən biri də ayrı-ayrı şəxslərin nüfuzu idi. Belə ki onların həmrəylik istəyi, fədakarlığa hazır olmaları, tövhid inancı cəmiyyətin iqtisadi baxımdan nailiyyət qazanmağında mühüm rol oynayırdı.

Bu baxımdan, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yürütdüyü siyasətə, atdığı addımlara aşağıdakılar daxil idi:

a. İltizam hissi və fədakarlıq;

b. Torpaq sahələrini icarə verməyin qadağan edilməsi;

c. Var-dövlət və kapitaldan faiz əldə etməyin qadağan edilməsi;

[7] Yerli əhali, mədinəlilər. Məkkədən gələnlərə – mühacirlərə köməklik göstərib sahib çıxdıqları üçün "ənsar" (kömək edənlər) adını almışdılar – ***tərcüməçinin qeydi.***

ç. Səhmdarlıq;
d. Yaxşı idarə olunan, etik bazar sistemi;
e. Sərvət və resursların yenidən bölüşdürülməsi;
ə. Zəkat.

## a. İltizam hissi və fədakarlıq

Peyğəmbərə görə islam ədaləti, qardaşlığı, sevgini, əməkdaşlığı, fədakarlığı ehtiva edən həyat tərzi idi. Bu səbəbdən o, heç bir zorakı vasitəyə əl atmadan islamda qarşıya qoyulmuş məqsədləri həyata keçirmək üçün öz praktik addımları ata bilmişdi. Ədalət və xeyirxahlıqla səciyyələnən belə bir mühitdə, ehtiyac içərisində yaşayan kimsəyə rast gəlmək çətindir. Həmin dövrdə cəmiyyətin bu səciyyəvi cəhətini adi cəhət hesab etməməliyik. Çünki mütərəqqi inkişafın bütün formalarının, o cümlədən iqtisadiyyatın arxasında dayanan ən mühüm amil şəxsi təşəbbüslər idi. Görünür, ədalət və qardaşlıq hissi indiki dövrdə müxtəlif ölkələrdə iddia edilən həqiqi və davamlı inkişafda nəzərə alınmır. Baxış bucağı dəyişməzsə, nə iqtisadi yardımlar, nə də xarici texnologiya sosial problemlərin həllinə kömək etməyəcəkdir.

Mədinə cəmiyyətində tövhid etiqadı və qardaşlıq hissi o mənaya gəlirdi ki, istənilən kömək tələbi rədd edilmirdi. Bu səbəbdən insanlar həm özlərinə, həm də yaşadıqları cəmiyyətə xidmət etmək üçün işləyirdilər.

### b. Torpaq sahələrini icarə verməyin qadağan edilməsi

Məqalənin birinci hissəsində torpaq sahələrini icarəyə verməyi haram edən hədislərdən söz açmışdıq. Yəni, başlı-başına buraxılmış torpağın sahibi onu əkə bilərdi. Yerdə qalan, yəni becərilməmiş hissəni isə başqa şəxsin icarə haqqı ödəmədən əkib-becərməsi mümkün idi. İcarə haqqı sahibi tərəfindən inkişaf etdirilməsi üçün əmək və pulun sərf edildiyi torpaqlardan alınırdı. Həmin dövrdə maliyyə və texniki resurslardan istifadə imkanları məhdud idi. Amma bu, insanlar arasındakı gəlir fərqini müəyyən edirdi.

### c. Var-dövlət və kapitaldan (kreditdən) faiz əldən etməyin qadağan edilməsi

Həzrəti Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* borca görə faiz almağı qadağan etmişdi. Maliyyə və texnoloji resurslardan istifadənin məhdud imkanları kreditlərə (borclara) tələbat yaratmışdır. İnsanların böyük əksəriyyəti onlara lazım olan məbləği əldə edə, pula daha çox ehtiyac yarandıqca faizsiz kredit ala bilirdilər. Bu o deməkdir ki, ədaləti təmin etmək yolunda torpaq və pulun təbii istehsal imkanları mövcud idi. Həm torpaq, həm də pul cəmiyyətin üzvləri üçün məccani idi. Belə cəmiyyətdə insan əməyi şəxsi gəlir və var-dövlətin əsas mənbəyi hesab olunurdu. Beləliklə, dövlət faizsiz

kreditlərin verilməsinə təşviq edirdi. Bütün vasitə və icraat faizlərin ödənilməsinin zəmanət altına alınması üçün istifadə edilirdi. Bu da öz növbəsində həm kredit verən, həm də alan üçün ədaləti təmin edirdi.

## *ç. Səhmdarlıq*

Səhmlərə sahib olmaq məsələsində tərəflərdən biri kapital, digəri isə əmək təqdim edir. Həmin cəmiyyətdə bununla, hər şeydən əvvəl, o nəzərdə tutulurdu ki, bir müsəlman iş görmək üçün ehtiyac duyduğu maliyyə resurslarını əldə edə bilirdi. Deməli, məqsəd istismara və faizlə əlaqəli saxta iddialara (iddia olunurdu ki, səhmlərə ortaq və sahib olmadakı risk üzündən ədalətsiz və daha çox pay qazanmaq faiz meydana gətirir) yan qapı açmaq deyildir.

Həmin cəmiyyətdə var-dövlət və kapitaldan məhdud miqdarda, həm də fərdi işlərdə istifadə edilirdi. Cəmiyyətin fərdləri arasındakı qardaşlıq ruhu və möhkəm həmrəylik şüuru nəticəsində səhm sahibi olmaq ədalətli və praktik işə çevrilmişdi. Praktik baxımdan istismara və faizə yer yox idi; əksinə, hökumət işdə ədaləti təmin etmək üçün dəqiq nəzarət həyata keçirirdi.

Həmin dövrdə səhmdarlıq işlərində müsəlmanlara kömək etmək məqsədi daşıyırdı. Həmçinin bu, cəmiyyətin zəif üzvlərinə (qadınlara, yetimlərə...) kömək etmək məqsədi güdürdü. İdeya bundan ibarət idi ki, yaşayış vasitələrini təminat altına almaq məqsədilə, xüsusən ticarət vasitəsilə mənfəət ədalətli şəkildə bö-

lünsün. Səhmdarlıq, kapital sahibi və işçilərin ortaqlığı – bütün bunlar pulu ödəyə biləcəyinə zəmanət verməyən, təkbaşına kredit götürməklə riskə girmək istəməyən işçi yoldaş üçün kapital əldə etməyin əlverişli vasitəsi idi. Gəlirdə ortaq olmaq imkan verirdi ki, sahibkar öz sərmayəsinin inkişafını müşahidə etsin, uzun vədədə zərərə düşməməyini təminat altına alsın. Əslində, diqqətlə nəzər yetirsək, görəcəyik ki, həmin vaxt səhmlərə sahib olmaq həmrəylik ruhu ilə müşayiət olunur, tərəflərdə xatircəmliyə səbəb olurdu. Səhmdarlıq həmin dövrdə istehsalı istismar etmək məqsədi daşımırdı.

### *d. Yaxşı idarə olunan, etik bazar sistemi*

Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yaxşı idarə olunan, üstün davranışlarla tənzimlənən bazarlar qurmaq istəyirdi. Sünnədə belə bazarlarla əlaqəli qayda və tənzimləmələr göstərilmişdir. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* çalışırdı ki, bazarlarda inhisar olmasın, ədalət hökm sürsün, alış-verişdə fırıldaqçılıq aradan qalxsın. Bir sözlə, bazarlar alış-veriş yeridir, inhisarçılıq, faiz və spekulyasiya yeri deyildir.

## *e. Sərvət və resursların yenidən bölüşdürülməsi*

Bərabərlik və qardaşlıq şüurunu inkişaf etdirmək üçün Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* sərvətləri, torpağı mühacirlər və ənsar arasında yenidən bölmüşdü. Bu, məsləhətləşmə və razılıq əsasında baş vermişdi. Yenidən bölüşdürmədə məqsəd bir qrup hesabına digər qrupa zülm etmək olmayıb, bərabərlik və ədalət şüurunu qoruyub saxlamaq idi. Mühacirlər cəmiyyətin doğma insanları olaraq alqışlanmışdılar. Onlara təkcə xeyriyyə yardımları edilməmiş, həm də özləri və ailələrini dolandırmaq üçün işləmək imkanı təmin edilmişdi. Əsas məqsəd ədalət, qardaşlıq və əməkdaşlıq olduğundan Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* torpağı əsl sahiblərinə qaytarmaq üçün əlindən gələni etmişdi. Bunun üçün imkan düşdükcə torpaqdan istifadə edənə alternativ torpaq sahəsi verir, yaxud onu başqa yaşayış mənbəyi ilə təmin edirdi.

Bu hal islama görə ümumi və xüsusi mülkiyyətin həqiqi məzmununu əks etdirir, fərdlərin təbii resurslardan istifadə hüququna necə sahib ola biləcəklərini izah edir. Hər hansı bir şəxs istehsal üçün təbii mənbəni inkişaf etdirərsə, ondan birinci istifadə etmək hüququ qazanır. Məhz buna görə mülkiyyət torpaqları əsl sahiblərinə – ənsara qaytarılmışdı. Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu məsələdə müraciət etdiyi üsuldan – dinc və qardaşcasına tətbiq olunan bu praktikadan indiki dövrdə müsəlman ölkələrinin hökumətləri

istifadə etməlidir. Çünki bu təcrübə cəmiyyətin bütün üzvlərini işləməyə, istehsal etməyə həvəsləndirir.

Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yenidən bölüşdürmə siyasəti cəmiyyətin bütün üzvlərinə şamil edilən mühüm işlərdən olub, birləşdirmə və qardaşlıq siyasəti idi. Bu siyasət mübarizə və ədavətə əsaslanmırdı, çünki islamda siniflər və irqlər arasında ayrı-seçkilik qoyulmur. Müsəlman cəmiyyətində sinfi, irqi, etnik bərabərsizlik yolverilməzdir. Bu prinsip Quran və Sünnədə bütün aydınlığı ilə öz əksini tapıb. Bundan əvvəl iqtibas gətirdiyimiz hədislərdən gördük ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)*, Əş`əri qəbiləsinin etdiyi kimi, fövqəladə vəziyyətlərdə uzun müddətli yenidən bölüşdürmə siyasətinə dəstək vermişdir.

## *ə. Zəkat*

Zəkat ədalət və qardaşlığı zəmanət altına alan mühüm vasitə olub, islamın beş şərtindən biridir. Bundan əvvəl demişdik ki, istehsal prosesində sərf olunan əməyi, təbii xassələri, o cümlədən kapitalı ədalətli və dəqiq şəkildə bir-birindən fərqləndirmək çox çətindir.

İslama görə cəmiyyətdə ədalət və fədakarlıq ruhu hakim olmalıdır. Varlılar başa düşməlidirlər ki, onların gəlirlərində ehtiyacı olanların, imkansızların payı vardır. Bu baxımdan zəkat vermək varlıların, imkanlıların kasıblar, kimsəsizlər, ehtiyac sahibləri qarşısında borcudur.

## *1.2. Müasir cəmiyyətin iqtisadi xüsusiyyətləri*

İndiki dövrdə islam nöqteyi-nəzəri və məqsədlərini yenidən necə tətbiq edə bilərik? Bunu praktik şəkildə həyata keçirmək üçün hansı vasitə və mexanizmlər lazımdır?

Hər hansı bir nöqteyi-nəzəri təqdim etmək kifayət etmir, həm də vasitə və mexanizmləri müəyyənləşdirmək çox mühümdür. Bu məqsədlə yaşadığımız dünyanı öyrənib təhlil etməliyik. Müasir dünyanın iqtisadi mənzərəsində baş verən dəyişiklikləri Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dövrü ilə müqayisədə öyrənməliyik.

Müasir dünyanın iqtisadi mənzərəsini doğru şəkildə təsvir etsək, islam nöqteyi-nəzərinin yenidən tətbiqinin yolları və üsullarını aşkara çıxarmaq mümkündür.

Topdan istehsal, əmək bölgüsü və texnologiyadan geniş istifadə bu araşdırmada başlıca iqtisadi xüsusiyyətlər olaraq göstərilmişdir.

Yuxarıdakı suala cavab tapmazdan əvvəl müasir cəmiyyətlərdə baş verən, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yaşadığı dövrdə mövcud olmayan iqtisadi dəyişiklikləri izah etmək lazımdır. Məhz bu yolla elmi-real yanaşma nümayiş etdirə, indiki dövrdə ehtiyac duyduğumuz istiqamətləri təqdim edə bilərik. Başlıca dəyişiklikləri aşağıdakı şəkildə müzakirə etməyə cəhd göstərəcəyik:

## *1.2.1 Topdan istehsal və əmək bölgüsü*

Şübhə yox ki, topdan istehsal və əmək bölgüsü müasir dünyanın iqtisadi mənzərəsində başlıca anlayışları əmələ gətirir. Geniş yayılmış texnologiya kapital və avadanlıqları daha mühüm hala gətirmiş, istehsal prosesində onların rolunu böyütmüşdür. Təbii ki, bu da fərdlərin gəlirlərinin həcminə, istehsal bacarıqlarına, cəmiyyətdə sərvətin bölüşdürülməsinə böyük təsir göstərir.

İndiki dövrdə kapitaldan istifadə fərdi müstəvidə həyata keçirilmir, onun istifadə edilən miqdarı kəmiyyət baxımından məhdud, keyfiyyət sarıdan aşağı deyildir. Fabrik və sənaye müəssisələrinin böyük əksəriyyətində daha çox kapital cəmlənib. Kapitaldan ideal şəkildə istifadə etmək üçün işçi qüvvəsi qruplar halında işləməli, əməkdaşlıq etməlidirlər. İstehsal fərdin vəzifəsi olmaqdan çıxmış, kollektivin – qrupun əməyinə çevrilmişdir. Odur ki istehsalı və istehsal edilmiş əmtəələrin qiymətlərini kollektivin üzvləri arasında bölüşdürmək zərurəti yaranır. Məlumdur ki, istehsal və bölüşdürmə prosesi günbəgün çətinləşir.

Topdan istehsal və çoxlu kapital tələb edən sənaye, əslində, texnoloji inqilabın nəticəsidir. Avadanlıqlar və avtomatlaşdırma istehsal prosesini köklü şəkildə dəyişdirmişdir.

Əsas dəyişiklik texnoloji və elmi tədqiqat sahələrində baş vermişdir. Texnologiya iqtisadi həyatda daha çox

istehsala səbəb olmuş, daha mürəkkəb vəziyyətin yaranması ilə nəticələnmişdir. Eyni vaxtda, insan oğlunun problemləri həll etmək imkanları artmış, fərdi tələbatların ödənilməsi üçün daha dəqiq, daha mürəkkəb, daha aktiv vasitələr meydana çıxmışdır. Bu da zəmin yaradır ki, daha faydalı, daha münasib iqtisadi siyasət istiqamətləri işlənib hazırlansın. Texnoloji inkişaf davamlı prosesdir. Nəzərə alsaq ki, dünya əhalisinin sayı artır, onda texnologiyanı müsbət şəkildə tətbiq etmək lazımdır. Amma müsəlman cəmiyyətində texnologiya və kapitaldan geniş istifadə ilə yanaşı, faiz əməliyyatlarının aparılması ehtimalları qarşısında ehtiyatlı olmalıyıq. Bu zərərli əməliyyatların baş verməməyi üçün bütün lazımi tədbirlər görülməlidir.

Müsəlman siyasətçilərin başlıca qayğısı həm də budur ki, az sayda insan "dilənçilik və dilənçi kapitalı texnologiyası"ndan istifadə edə bilər. Elə isə istehsaldan irəli gələn mükafat və gəlirlərdə fərdlərin hüquq və paylarına hansı münasibət bəsləməliyik? İnkişaf etməkdə olan ölkələr kapitalı və bazisi möhkəmləndirmək üçün bu gəlirlərin müəyyən hissəsini ədalətli şəkildə ehtiyat olaraq toplamalıdır.

## 1.3. Müasir vasitələr və texnika

Tövhid, varislik və qardaşlıq prinsipləri ilə əlaqəli, faizdən uzaq islam nöqteyi-nəzərinin qarşısında duran məqsədləri həyata keçirmək üçün, hər şeydən əvvəl, müasir iqtisadi üsul və vasitələri öyrənməliyik. Problemlərlə mübarizədə daha üstün və səmərəli üsul

tapmaq üçün müasir cəmiyyətdə islam nöqteyi-nəzərinin necə istifadə olunması məsələsi üzərində düşünməliyik. Hər bir sistem və quruma nəzər salmaqla işə başlamaq lazımdır. Məqsəd icrası mümkün funksiyanın tapılmasıdır.

Ola bilsin ki, sözügedən sistem və qurumların strukturunda bəzi lazımi dəyişikliklərin aparılması zərurəti yaransın. Yaxud islamın məqsədlərini həyata keçirmək üçün bu qurum və sistemlərlə əməkdaşlıq etmək lazım gələcəkdir.

İslam iqtisadiyyatına xidmət edə biləcək bəzi müasir qurum və sistemlərə nəzər salaq:

## *a) Bank sistemi*

Bank sistemi müasir cəmiyyətlərə imkan yaradır ki, kapital əldə etsinlər, onu əmək və sənaye ehtiyaclarını ödəmək üçün sərmayə yatırsınlar.

Kapitalist cəmiyyətində bank faizləri kapitalın çatışmazlığı ilə müşayiət olunan mülkiyyət münasibətini göstərən əlavə gəlirdir. Müsəlman cəmiyyətində isə ehtiyatları (əmanətləri) toplamaq, lazımi kapitalı istehsala istiqamətləndirmək üçün oxşar quruma ehtiyac vardır. Bu sistem faizdən uzaq olmalıdır. Müsəlmanları ehtiyata pulun toplanmasına (əmanətə) və bu ehtiyatdan (əmanətlərdən) heç gəlir ummamağa razı salmaq lazımdır. Həmçinin hökumət xalqa heç bir çətinlik yaratmadan bu əmanətləri zəmanət altına almaq üçün tədbirlər görməlidir.

## *b) Sığorta*

Sığortalama maliyyə sistemində faydalı iqtisadi əməliyyatdır. Sığorta şirkətləri bankları xatırladır: əmanətləri toplayıb cəlb edir, sənaye (istehsal) əməliyyatlarında riski azaltmağa kömək edir. Əslində bu, müsəlman cəmiyyətində səhmlərə sahib olmaq məsələsi ilə əlaqəli ənənəvi islam anlayışını çox xatırladır. Söhbət pul sahiblərinin işçiləri istismar etmədiyi cəmiyyətdən gedir; əksinə, belə bir cəmiyyətdə zəif və imkansız şəxslər gəlirdən öz paylarını əldə edə bilirlər. Görəcəyik ki, bank sistemi, sığorta və texnologiyanın köməyi ilə müasir müsəlman cəmiyyəti böyük miqdarda kapitalı idarə etməyin münasib üsulunu tapa, sənayeni iqtisadi qardaşlıq anlayışını qurban vermədən, ən uğurlu şəkildə maliyyələşdirə bilər.

Bu və digər sistemlər islamın qarşıya qoyduğu istiqamətlərə xidmət edə bilər. Onları daim yenilənən texnoloji vasitələrin köməyi ilə istifadə etmək və inkişaf etdirmək lazımdır. Bu sistemlərin sayəsində əl əməyini azaltmaq, xidmətləri sürətləndirmək mümkündür.

Texnologiya və elmi araşdırmalar təkcə istehsalı artırmır, həm də bölüşdürmə əməliyyatını inkişaf etdirir. Texnologiya və elm insanlara imkan verir ki, çox qısa zaman kəsiyində lazımi statistikanı hazırlayıb istənilən formada hesabatlar tərtib etsinlər.

Texnologiya, xüsusən kompüterlərdən aktiv istifadə olmazsa, gündəlik mürəkkəb hesablama və statistikanı aparmaq mümkün deyildir. Bu texnologiyanın köməyi

ilə müasir dünyada milli gəliri hesablamaq, istehsal əməliyyatına daxil amillərin təsnifini aparmaq mümkündür.

### c) Vergilər

İndiki cəmiyyətlərdə aktiv vergi sistemini zəmanət altına almaq üçün müasir texnologiya və hesablamalardan istifadə etmək lazımdır. Vergilər iki məqsədə xidmət edir: a) cəmiyyətin üzvlərinin gəlirlərinin müəyyən hissəsini toplamaq; b) faizi aradan qaldırmaq üçün onların gəlirlərini yenidən uyğun vəziyyətə gətirmək. Vergi toplamaq insanların gəlirlərinin yenidən formalaşdırılmasına kömək edir. Belə ki başqalarının haqqı sayılan şey təmin edilir ki, bu da faizin aradan qaldırılmasına kömək edir. Gəlir vergilərini birbaşa və dolayısı ilə istifadə etmək mümkündür. Beləliklə, cəmiyyətin zəif və imkansız fərdləri resurslardan öz paylarını ədalətli şəkildə əldə etmiş olurlar. Başqalarından, xüsusən yoxsullar və zəiflərdən cəmiyyətin istifadə hüquqlarının müəyyən edilməsi hər dəfə çətinləşdikcə artan vergilərə əl atmaq mümkündür. Vergilərin digər bir xüsusiyyəti isə cəmiyyətin zəif və kasıb fərdlərinə birbaşa olmayan kömək və ianələrin verilməsidir. İnsanlar və hökumət cəmiyyətin imkansız təbəqəsini yaşatmaq üçün əllərindən gələni etməlidirlər.

### *ç) Milliləşdirmə*

Milliləşdirmənin bütün formalarından ictimai dəyişikliyin tənzimlənməsində, sosial ədalətsizlik hallarının kompensasiya edilməsində, ümumi mənafenin qorunub saxlanılmasında istifadə edilir. İslamın ədalət və qardaşlıq prinsiplərinə uyğun olaraq, milliləşdirmədən insanlara zərər vurmaq, onları qanuni mülkiyyətlərindən məhrum etmək məqsədilə istifadə etmək olmaz. Əgər müsəlman cəmiyyətində ümumi mənafe və xidmət naminə fərdi mülkiyyətin milliləşdirilməsinə ehtiyac yaranarsa, cəmiyyət həmin mülkiyyətə və ya istehsal vasitələrinə bu və ya digər fərdin yatırdığı investisiyaları qorumalıdır. Eyni münasibət milliləşdirmə zamanı fərdlərin əməyinə də göstərilməlidir.

# 2. Üslub və istiqamətlərə dair təkliflər

Bu yerdə, müasir vasitə və üsulları tətbiq etməklə islam iqtisadiyyatının səmərəliliyini göstərmək üçün plan (layihə) şəklində praktik istiqamətlərin təklif edilməsi münasib hesab olunur. Bu istiqamətlər aşağıdakıların inkişaf etdirilməsində təmsil olunur:

1. Tərbiyə, təlim və informasiyanın islam qurumları
2. Mütərəqqi və professional ictimai sistem və ümumi idarəetmə
3. Əmanətlər və istehsalçı kapitala islam sığortası

## *2.1. Tərbiyə, təlim və informasiyanın islam qurumları*

İlk iki məsələ sadə və aydın görünür. Amma belə deyildir. İndiki şəraitdə bu iki istiqamətə qısa şəkildə toxunmaq, bəlkə də, münasib olardı. Uşaqlarımızın təhsili və tərbiyəsində yol verdiyimiz səhvləri düzəltmək üçün müsəlman zehniyyətində islahatların aparılması çox zəruridir. Tərbiyə və təhsil işi elə qurulmalıdır ki, üstün keyfiyyətləri, sevgi və biliyi ilə seçilən uşaqlar yetişsin. Bu uşaqlar azad ruhda və əxlaq qaydaları ilə böyüməlidirlər. Xurafat və mövhumatı onların zehnindən silib atmaq lazımdır. Biz əməlisaleh insan – cəmiyyətin əməlisaleh üzvünü, deməli, əmin-amanlıq

içərisində Allahı sevən, Onun dünyamıza göndərdiyi təlimlərini başa düşən varis (xəlifə) yetişdirməliyik.

Bütün bunlar islama aid bəzi məsələlərdir. Biz bunları həyata keçirmək istəyiriksə, müsəlman zehniyyətində islahat aparmalıyıq. Zehniyyətdə islahatlar aparılmazsa, müsəlmanlar informasiya vasitələrində söz sahibi ola bilməyəcəklər.

## *2.2. Mütərəqqi və professional ictimai sistem və ümumi idarəetmə*

İkinci təklif ədalətli ümumi və ictimai idarəetməyə olan ehtiyacla əlaqəlidir. Bilikli gənclər adətən təbiət elmləri üzrə ixtisas almağa təşviq edilir. Savadı az gənclər isə humanitar fənlər üzrə oxuyurlar. Bizim geri qalmış mədəniyyətimizdə işləmək üçün peşə sahələri diqqət mərkəzində olan, düşüncəni məşğul edən məsələ olmayıb, maddi yaşayış vasitələrinin dar miqyasda seçilməsini ifadə edir. Bu da öz növbəsində inzibati sahədə çalışanların keyfiyyətinə təsir göstərir. Çünki onların çoxunun humanitar fənlər üzrə ixtisası vardır. Uşaqlarımızı tərbiyə edib təhsil verərkən onlara varislik şüuru aşılamalıyıq.

Məqsədlərimizi reallaşdırarkən ictimai və humanitar sahələrdə zəkalı və yaradıcı müsəlman alimlərinin yetişdirilməsinə diqqət yetirməliyik. Dinamik, yaradıcı və bacarıqlı ictimai sistem və idarəetmənin yaradılması üçün məhz belə insanlara ehtiyac vardır. Bacarıqlı ictimai sistem və idarəetmə öz növbəsində yaxşı təbiət alimləri yetişdirir. Qeyri-münasib ictimai mühit

və idarəetmə isə, hətta ən yaxşı alimlərin ölkələrini tərk edib mühacirətdə yaşamalarına səbəb olur. Yaxşı idarəetmə nəticəsində təbiət elmləri sahəsində bacarıqlı mütəxəssislərin yetişdirilməsi və cəlb edilməsi üçün bütün imkan və vasitələr təmin olunur. Gənc nəsillərimiz elm və əmək sahələrini seçdiyi üçün fəxr etməlidirlər. Cəmiyyətimiz humanitar və təbiət elmləri üzrə ixtisas sahələri arasında balans yaratmalıdır. Müsəlman cəmiyyətlərində islahatların aparılması və onların yenidən formalaşması üçün bu cəhət nəzərə alınmalıdır.

## *2.3. Əmanətlər və istehsalçı kapitala islam sığortası*

Bu məsələ islam baxımından yenidir, odur ki izah və təfsilata ehtiyac vardır. Sığortalama əmanətlərin qorunmasını məqsəd güdür, əmanət pulların yığılmasına təşviq edir. Bu məsələni düzgün başa düşmək üçün müasir islam cəmiyyətində sərvətlərin bölüşdürülməsi ilə əlaqədar bəzi anlayışları xatırlamaq lazımdır.

Bundan əvvəl izah etmişdik ki, ədalətin hakim olduğu müsəlman cəmiyyətində gəlir fərqi insanlar arasında vüsət kəsb etmir. Bu fərqlər insan oğlunun əmək və düşünmək bacarığındakı müxtəlifliklə əlaqədardır. Bunun fərdlərin təbii resurslarla əlaqəli ehtiyaclarına aidiyyəti yoxdur. Təbii resurslarla əlaqəli gəlirlər milli sərvət olub hər kəsə aiddir. Prinsipial olaraq, bu gəlirlər cəmiyyətin bütün fərdləri arasında bərabər bölüşdürülməlidir. Bu cəmiyyətdə xüsusi mülkiyyət funksional vasitədir. Mütləq mülkiyyət hüququ deyilən

şey mövcud deyildir; o, ancaq birinci istifadə hüququnu təmin edir.

Bu müzakirəni davam etdirmək üçün kapitalist-liberal və ya ümumi-sosialist cəmiyyətində hökm sürən müasir əməli təcrübəyə ehtiyac vardır. Müsəlman ictimai-iqtisadi sistemi məzmun və konseptual baxımdan fərqlidir. Digər cəmiyyətlər kimi müsəlman cəmiyyətinin də istehsal vasitələrinin formalaşdırılması üçün kapitalın idarə edilməsinə ehtiyacı vardır. Topdan istehsal üçün lazım olan maliyyə resurslarının fərdi müstəvidə idarə edilməsi mümkün deyildir. Müsəlman cəmiyyətlərində fərdi gəlir və əmanətlər insanın əmək bacarığı ilə müəyyən olunur. Həmçinin fərdi gəlir və sərvətlərin təbiəti müsəlman cəmiyyətlərində böyük sənaye əməliyyatlarının maliyyələşdirilməsi üçün kapitalın yığılması sisteminin təsis edilməsinin münasib və ədalətli üsulunun tapılmasını zərurət halına gətirib.

İqtisadi baxımdan müsəlman cəmiyyətində istismarçılıqla məşğul olmayan istehsalçılar böyük sənaye işləri üçün lazım olan kapitalın idarə edilməsinin münasib mexanizmini tapmaq istəyi və bacarığına sahib olmalıdırlar. Bu mexanizm bütün istehsalçılara işləmək və daha çox gəlir payı əldə etmək imkanı verəcəkdir. Bu daha böyük məsələdir, çünki onların payı iki hissədən ibarətdir: birinci budur ki, onlar təbii resurslarda bərabər paya sahibdirlər; ikinci və əlavə olanı budur ki, onlar əməyə müvafiq gəlir əldə edirlər. Məlumdur ki, ikinci hissə hər bir fərdin zəhməti və şəxsi bacarığına əsaslanır.

Unutmaq olmaz ki, cəmiyyətin istifadə etdiyi kapital və təbii resurslar artdıqca fərdlərin əldə etdiyi gəlir payı da artacaqdır. Cəmiyyətin üzvləri görəcəklər ki, daha ciddi işlədikcə kapital və fərdi gəlir artır. Gəlir artdıqca daha ciddi işləməyə, daha çox pul toplamağa həvəs yaranır. Bu hal insanda maddi stimul yaradır.

Kapitalın uğurlu yığımı sisteminin tapılması müasir müsəlman cəmiyyətlərinin üz-üzə gəldiyi böyük problemdir. Xüsusən kapitalın az olduğu ölkələrdə bu məqsədi həyata keçirmək üçün hökumət, ümumi idarəetmə qurumları cəmiyyətin üzvlərini gəlirlərinin böyük hissəsini əmanət saxlamağa həvəsləndirməklə müxtəlif üsullar tapmalı, bu işi asanlaşdırmaq üçün imkanlar yaratmalıdırlar. Toplamaqla hər şeydən əvvəl böyük sənaye işləri üçün kapital təmin edilir. Mühüm olanı bu əmanətlərdən kimin istifadə edəcəyi deyildir; mühüm olanı fərdi mülkiyyət hüququnun zəmanət altına alınmasıdır. Fərd ehtiyac hiss etdikdə və ya kapitaldan istifadəyə üstünlük verdikdə öz əmanətlərindən sərf edə bilər. Fərdi istifadə insanların yaşayış vasitələri və üsullarını ləğv etmək deyildir. Bu vasitələrin dəyərini kredit olaraq fərz edək. Əgər fərdi ehtiyacları təmin etmək üçün daha çox şey tələb edilirsə, digər xeyriyyə resursları, məsələn, zəkat barəsində düşünmək lazımdır. İnsan eyni vaxtda həm ehtiyat pulunu (əmanətləri), həm də vasitələrini itirə bilməz. Bütün hallarda cəmiyyətin üzvləri əmanətlərinin aktivliyindən istifadə edəcəklər. Bu, təbii resursların faydalılığını (məhsuldarlığını) artıracaq, cəmiyyətdə fərdlərin orta gəlir payını yaxşılaşdıracaqdır. Hökumət və ümumi təşkilatlar bu məqsədlə

əcnəbilərin kredit və köməyindən istifadə edə bilər. Həmçinin hökumət şirkətləri və qurumları resurslardan istifadə etmələri üçün əcnəbi mülkiyyətçilərə münasib, dəyişməz, ədalətli qiymət ödəməlidirlər. Əks halda, digər cəmiyyətlər bu resursları (torpaq sahələri, kapital...) istifadədən fayda götürməyəcəkdir. Əcnəbi resurslardan istifadənin dəyəri (qiyməti) obyektiv surətdə müəyyən edilməlidir. Bu olmazsa, resurs və kapitalın beynəlxalq tədavülü baş verməyəcəkdir.

Nəhəng sənaye işlərinin olduğu müasir islam cəmiyyətində milli kapitalın sığortalanması yaxşı cavab təsiri bağışlayır. Lazımi və münasib üsulun tapılması mümkündür. Bu, dövlətin vəzifəsidir. Bu vəzifənin çox hissəsini indiki dövrdə dövlət qurumları görür. Bu qurumlar adətən nəzarət funksiyasını həyata keçirir, ümumi statistikanı təşkil edir, milli hesabları mühafizə edir, vergiləri toplayır. Milli kapitalın sığortalanması bir neçə cəhətdən cəlbedicidir. Çünki milli kapitalın sığortalanması hesabları mühafizə edən, statistika təşkil edən, vergi toplayan hökumətin bu funksiyalarının genişlənməsi və işləkliyinə şərait yaradır.

Digər tərəfdən, hökumət tərəfindən idarə edilən, sığortalanan və qorunan banklar əmanətləri toplayır, qoruyur, onlardan fayda əldə edir. Bu yerdə, yəni milli kapitalın sığortalanması məsələsində son dərəcə dəqiq olmaq lazımdır.

Milli kapitalı sığortalamaq əsasən hökumət və qurumlarının vəzifəsidir. Bu vaxt bütün növ əmanətlər, kapital və istehsalçı əsas kapital zəmanət altına alınır. Bu hesab və statistika əmanətlərə nəzarət və on-

ların artırılmasında, milli sənaye və xidmət üçün lazım olan kapitalın formalaşdırılmasında xalqlara və ölkələrə, həmçinin bütün növ vergiləri daha dəqiq və düzgün şəkildə müəyyən edib toplamada müsəlman hökumətlərə kömək edir. Bununla yanaşı, bu hesablar müsəlman hökumətə təbii resurslardan istifadədən əldə edilən gəlirlər məsələsində kömək edir. İslama görə bu, bir neçə cəhətdən xərac məfhumunun geniş istifadəsinin bir formasıdır. Xərac torpaq sahəsindən əldə edilən gəlirin bir hissəsinin tutulmasıdır. Söhbət ya həmin torpaq sahəsindən yığılan məhsuldan əldə olunan, ya da hökumətin nəzarəti ilə milli torpaqların icarə verilməsindən qazanılan gəlirdən gedir. Xərac məsələsində hökumət əkinçilərə əkin-biçinlə məşğul olmaq üçün torpaqlar verildiyi vaxt cəmiyyəti təmsil edir.

Milli kapitalın sığortalanması anlayışı çərçivəsində müəyyən qədər kapitala və əsas kapitala sahib hər bir şəxs də sığortalanır. Fərd hər dəfə öz əmanətlərindən istifadə etmək istədikdə onu əldə edə bilir. Bu vaxt istər özü, istərsə də başqaları bu əmanətdən istehsal üsulu olaraq istifadə etsə də, vəziyyət dəyişmir, o öz əmanətindən istifadə edə bilir. Bu vəziyyətdə, kapitaldan istifadə edən şəxs kredit götürən tərəf kimi çıxış edir. O, əsas kapital və sığortadan məsuldur. Ehtimal olunan zərərləri aradan qaldırmaq üçün sığorta və dövlət qurumları əldə edilən gəlirin 100 faizini alır. Bu mənada sığorta, əmanətlərə təşviq və kredit vermək islama yad anlayışlar deyildir. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buna oxşar addımlar atmışdır. Əbu Hüreyrəyə istinadən İmam Buxari və İmam Müslim demişlər:

“Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurmuşdur: “Elə bir mömin yoxdur ki, məni dünya və axirətdə hər şeydən üstün və özünə yaxın bilməsin. Bir mömin öldükdə özündən sonra var-dövlət qoyub-gedərsə, nəslindən olanlar ona varis olsunlar. Amma borclu ikən ölən və borcunu ödəyəcək qədər var-dövlət qoyub-getməyən mömini isə yanıma gətirin. Çünki mən onun böyüyüyəm”.

Bununla da işçi lazımi vasitələri və kapitalı özündə saxlayır. Əks halda, işindən çox əmanətlərini itirmə ehtimalı ilə üz-üzə gələcəkdir. Bu vəziyyət fərdin öz ehtiyatlarından istifadə etdiyi vəziyyətə oxşayır. Amma bu sistemə gəlincə, o, sığortalama sayəsində pulunun dəyərini əldə edir. Çox vaxt dövlət sığorta qurumları özündə bankların, qarşılıqlı sığortalama şirkətlərinin və milli planlama şurasının funksiyalarını birləşdirir. Sığorta qurumları əmanətləri toplayır, kapital təmin edir, təbii resurslardan istifadə gəlirlərindən münasib hissə tutur, cəmiyyətin hər bir üzvünə layiq payları bölüşdürür.

Bu baxımdan, əmanətlərin, kapital və əsas kapitalın aktivliyini artırmaq, aidiyyəti sənaye işinə istiqamətləndirmək kapitalın sığortalanması siyasətinin məqsədini əmələ gətirir. Bu siyasət xalq kütlələrində milli sərvətləri qorumaq, ümumi maraqları təminat altına almaq şüurunu möhkəmlədəcək, korrupsiya və sağa-sola dağıtma ilə mübarizəyə kömək edəcəkdir. Belə qurumlarda topdan istehsal idarələrinin məsuliyyəti səhmlərə sahib bacarıqlı, stimul yaradan, professional şəxslərə aiddir. Məhz belə şəxslər sənaye və istehsalı

keyfiyyətli şəkildə idarə edib qoruyurlar. Əks halda, zərərə məruz qalan ilk tərəf məhz onlar olacaqdır. Çünki hüquqi cəzalarla yanaşı, hər şeydən əvvəl, kapital və əsas kapitalın sığortalanması lazımdır.

Şübhə yoxdur ki, bizim bu təklifimiz varisliklə əlaqəli məqsədləri həyata keçirməzdən əvvəl hərtərəfli şəkildə öyrənilməlidir. Bunun üçün bir çox iqtisadi problemlərə yenidən nəzər salmaq lazım gələcəkdir. İnflyasiya öyrənilməli və həll edilməli problemlərdəndir. Valyutanın həqiqi dəyərindəki istənilən dəyişiklik insanların (banklardakı) əmanətlərinin həqiqi dəyərinə təsir göstərir. Əmanətçiləri qorumağın aksiomatik yolu ya inflyasiyanı aradan qaldırmaqdan, qiymətləri stabilləşdirməkdən, ya da inflyasiya nəticəsində əmanətçilərə dəyən zərəri dövri şəkildə ödəməkdən keçir.

Rəqabət və alternativlər uğur qazanmaq istəyən iqtisadi sistemlər üçün mühüm məsələlərdir. Bürokratiya, rəqabət və alternativlərin olmamağı isə etinasızlıq, sağa-sola dağıtma, monopoliya, qeyri-dinamik proseslər doğurur.

Milli kapitalın sığortalanması ilə əlaqədar irəli sürülən bu təklif sonda iqtisadi ədaləti təmin edəcək, faizi (iqtisadi zülmü) aradan qaldıracaqdır. Müsəlman hökumətlər elə iqtisadi kurs yürütməlidir ki, insanları səylə işləməyə təşviq etsin, xalq kütlələri və ümmətim mənafeyini əsas götürsün. İslamın iqtisadi ədalət konsepsiyasında qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün əlavə dəstəyə ehtiyacımız vardır.

# 3. Əsaslara qayıdış: təbii resursların bərabər şəkildə bölüşdürülməsinə dair

Yazımızın sonuna yaxınlaşdıqca məqaləmizin əsas məzmununu əmələ gətirən bəzi başlıca anlayışları dəqiq şəkildə izah etmək lazım gəlir. Bu anlayışlar təbii sərvətlər və resurslara sahib olmaq istəyən hər kəsin bərabərhüquqlu olmağı, gəlirlərin ədalətli şəkildə bölüşdürülməsi haqqındadır.

İzah məqsədilə, ancaq iki üzvü: A və B üzvləri, 100 kvadrat kilometrlik ərazidə təbii resursları olan cəmiyyət fərz edək. Əgər bu iki şəxs qəbul etsə ki, faydalansınlar deyə torpağı yaradan Allahdır, onlar eyni cəmiyyətin üzvləridir, Allah onları yaradıb, aralarında heç bir fərq qoymur, onda hər kəsə şəxsi istifadə üçün 50 kvadrat kilometrlik ərazi düşəcəkdir.

Cəmiyyətdə işlərin düzgün getməsi üçün onlar bir-birinin maraqlarına hörmət etməlidirlər. Onların hər birinin qəbul etdiyi qərarlar digərinin maraqlarına və yaşadıqları cəmiyyətdə torpağın məhsuldarlığının (aqrar sənayenin) ümumi nəticəsinə təsir göstərəcəkdir. Onlardan heç kəsin haqqı çatmır ki, həm özünün, həm də digər tərəfin sahib olduğu resurslara zərər verəcək iş görsün. Onların hər birinin statusu varislik statusudur. Bununla da, mülkiyyət eyni vaxtda həm şəxsi, həm də ümumi səciyyə daşıyır.

Digər tərəfdən, işləmək bacarığı şəxsdən şəxsə dəyişir. Allah insanları bacarıqları müxtəlif yaratmışdır; elə insanlar var ki, başqalarından güclü və ağıllıdırlar. Bəzi insanlar da ya yaşlı olduqlarından, ya da anadangəlmə qüsurlar səbəbi ilə daha az bacarığa sahibdirlər və s. Fərz edək ki, misalımızdakı B ancaq 30, A isə öz 50 kvadrat kilometrlik torpaq payı ilə yanaşı əlavə 20 kvadrat kilometrlik ərazini də əkməyə qadirdir. Onların zəhməti həm sahib olduqları torpaq sahəsinin, əm də cəmiyyətdə yekun istehsalın kəmiyyəti və keyfiyyətinə təsir göstərəcəkdir.

Belə vəziyyətdə torpaq sahəsinin gəliri necə bölüşdürülməlidir? Əgər A yetmiş kvadrat kilometrlik ərazidən götürdüyü gəliri özündə saxlayıb, B-yə heç nə verməzsə, onda sonuncu ona aid 20 kvadrat kilometrlik ərazini A-ya verməz. Əgər 20 kvadrat kilometrlik ərazi əkilməzsə, nə A, nə də B ondan fayda götürməyəcəkdir. Belə olan təqdirdə, Yaradanın qayəsinə zidd olaraq, resurslardan sui-istifadə olunacaqdır. Yeganə ədalətli bölüşdürmə 20 kvadrat kilometrlik ərazinin gəlirini A və B arasında bölüşdürməkdən ibarətdir. Belə ədalətli bölgü zamanı birinci tərəf zəhmətinin mükafatını alır, ikinci tərəfə isə torpağın təbii (məhsulvermə) gücündən payına düşəcək hissə çatır. Çünki sonuncunun 20 kvadrat kilometrlik ərazisi əkinçiliyə yararlıdır. Deməli, hər iki şəxs resurslardan əldə edilən gəliri yarıbayarı bölürlər. Halbuki onlardan birinin işləmə bacarığı 70, digərininki isə 30 faizdir. Belə vəziyyətdə bu, hər iki tərəf üçün ən münasib olanıdır; onların hər ikisi bu işdən qazanclı çıxır. Beləliklə, onlar istehsal

və bölüşdürmə vəzifəsini ədalətli şəkildə, əməkdaşlıq çərçivəsində icra etmiş olurlar.

Sırf iqtisadi nöqteyi-nəzərdən istehsal amillərinə sahib olmaq istehsal və cəmiyyətdə davamlılıq və stabilliyi məqsəd güdür. Bu o deməkdir ki, müsəlman cəmiyyətində mülkiyyət mütləq deyildir; amma daha bacarıqlı, daha zəhmətkeş fərdlərə birinci istifadə etmək hüququ verilir. Məqsəd cəmiyyətin güclü-zəif bütün üzvlərinin faydalanmasıdır. Mülkiyyətə islamda verilən fərqli tərif müsəlman iqtisadçılara imkan yaradır ki, islam iqtisadiyyatı adlanan hərtərəfli, funksional orijinal sistemi inkişaf etdirsinlər.

Müsəlmanlar tövhid və varisliyi (dolayısı ilə bərabərliyi), həmçinin qardaşlığı (dolayısı ilə əməkdaşlığı) əsas anlayışlar olaraq qəbul edirlər. İslam bu anlayışlara cəmiyyətin əsaslandığı bünövrə olaraq baxır. Bu iki anlayış bütün bəşəri qurumlarda, o cümlədən xüsusi mülkiyyət təsisatında öz əksini tapmalıdır. Mütləq xüsusi mülkiyyət kapitalizmə aid anlayışdır, islamın bərabərlik və əməkdaşlıq prinsipləri ilə üst-üstə düşmür.

Təbii resurslara tam bərabər şəkildə sahib olmağa gəlincə, bu, həmin resursların cəmiyyətin fərdləri arasında yenidən təkrar-təkrar bölüşdürülməsini tələb edir. Təbii ki, bu hal iqtisadi fəaliyyətin iflic olmağına, sosial münasibətlərin korlanmasına aparıb çıxaracaqdır. İslamın iqtisadi bərabərlik anlayışı əməli səbəblərdən, cəmiyyətin zəif və bacarığı yetməyən üzvlərinin tələbatlarının onların hörmət-izzəti qorunmaqla ödənilməsi üçün istiqamətləndirici xətt rolunu

oynayır. Məhz islam nöqteyi-nəzəri ədalət və bərabərliyi təmin etməyə qadir yeganə nöqteyi-nəzərdir.

Cəmiyyətin zəif üzvlərinin tələbatları və hüquqları təmin edilsin deyə müsəlman iqtisadçılar istehsal və ictimai stabillik vasitələrini davamlı şəkildə inkişaf etdirməlidirlər. Bacarıqlı və bəxti gətirmiş şəxslər isə cəmiyyətin təbii resurslarından istifadəyə görə müvafiq vergilərə təhkim edilməlidirlər. Görünür, vergi yığmaq gələcək baxımından zəiflərin iqtisadi hüquqlarının qorunması üçün çox münasib üsuldur.

Hökumət və cəmiyyət yeni texnologiyaların köməyi ilə əmin olmalıdır ki, hər bir vətəndaş, sahib olduğu resursların keyfiyyəti, işində istifadə etdiyi resursların kəmiyyəti nə olursa-olsun, əməyi ilə yanaşı, Allahın bütün cəmiyyətə bəxş etdiyi təbii resurslara aid gəlirdə bərabər pay əldə edir. Allah Təala buyurur:

“Evlənməyə qüvvəsi çatmayanlar Allah öz lütfü ilə onlara dövlət verənə qədər iffətlərini qoruyub (özlərini zinadan) saxlasınlar. Kölələrinizdən mükatəbə etmək istəyənlərlə - əgər onlarda bir xeyir görürsünüzsə - mükatəbə edin. Onlara Allahın sizə verdiyi maldan verin. Əgər cariyələriniz ismətlərini qoruyub saxlamaq istəsələr, fani dünya malı əldə etmək xatirinə onları zinaya məcbur etməyin. Kim onları (cariyələri zinakarlığa) məcbur edərsə, (bilsin ki) onların bu məcburiyyətindən sonra, əlbəttə, Allah (zinakarlığa vadar olanları) bağışlayar, rəhm edər” (ən-Nur, 33);

“Mallarında da dilənçinin və (abrına qısılıb dilənməyən) yoxsulun haqqı (payı) var idi” (əz-Zariyat, 19).

Yeri gəlmişkən, təkrarən deyək ki, bölüşdürmədə başlıca məqsəd ədaləti, maksimal fəallığı təmin etməkdir, yoxsulların yaşayış səviyyəsini yaxşılaşdırmaqdır, iş, elm və texnologiya sahələrində kəşflərə və yaradıcılığa həvəs yaratmaqdır.

Cəmiyyət və hökumət dinamik və stabil, yaşamağa qabil iqtisadiyyatı qoruyub saxlamaq üçün əlindən gələni etməlidir. Müsəlmanlar sistemli, azad bazar iqtisadiyyatını qorumalıdırlar.

İslam azad bazar iqtisadiyyatı monopoliyadan, korrupsiyadan, işbazlıqdan, fırıldaqdan, spekulyasiya sövdələşmələrindən uzaqdır. Azad islam bazar iqtisadiyyatında istismar, təbii fəlakətlər nəticəsində yaranan mal bolluğu və çatışmazlığı (defisit) mövcud deyildir. İnformasiya və təcrübənin köməyi ilə bazarda istiqamətlər müəyyənləşir, resurslar münasib vaxtda doğru şəkildə toplanır.

İnsanlara kömək məqsədilə elm və texnologiyadan istifadəyə təşviq edilməlidir. Qazanılan biliklər ölkənin inkişafında mühüm rol oynayır. Elmi müəssisələr, texnologiya qurumları, şirkətlər insanları istismar etməməlidir. Texnoloji monopoliyadan insanları qorumaq üçün ağlabatan gəlir sistemi işlənib hazırlanmalıdır. İfrat ideoloji hüquqlar monopoliya və imperializmin yeni formasıdır.

Müsəlman iqtisadçılar ədalətin bərqərar edilməsinə çağırış etməli, inkişaf etmiş ölkələr tərəfindən zəif xalqların beynəlxalq texnologiya monopoliyası əsasında istismar edilməsi ilə mübarizə işinə kömək göstərməlidirlər. Həmin ölkələr zəif və yoxsul xalqları əsarət altına almaq, inkişaflarına mane yaratmaq üçün

texnoloji üstünlük nümayiş etdirir. Geri qalmış xalqlar elm və texnologiya meydanlarında bacarıqların inkişaf etdirilməsi üçün lazımi mühitin formalaşdırılmasına birincilik verməlidir. Hər kəs üçün ədaləti təmin etmək məqsədilə həyatın hər bir sahəsinə, xalqın mənafeyinə dair maarifləndirmə işi aparılmalıdır.

# 4. Son

Sonda ümid edirik ki, iqtisadiyyatla əlaqədar islam nöqteyi-nəzərinin bəzi əsas anlayışlarını izah edə bilmişik. Bu yazıda əsas məqsəd islam iqtisadiyyatı haqqında konseptual təsəvvür formalaşdırmaqdır. Mövzu ilə əlaqədar hələ çox məsələ öyrənilməlidir. Bu anlayışları düzgün başa düşmədən kapitalist iqtisadiyyatının mühüm tərəfləri ilə mübarizə əbəsdir. Hərtərəfli öyrənmə, şüurlu münasibət, dərin təhlil olmadan işə başlamaq əks nəticələr verə bilər.

Müsəlman iqtisadçıların üz-üzə gəldiyi çətinliklərdən biri budur ki, onlar kapitalizm sisteminə öyrəşiblər, real həyata tətbiq olunmağa qabil islam iqtisadiyyatı sistemindən heç bir kömək görmürlər. Nəzəri cəhətdən ümumi konseptual təsəvvür aşılamaq ağır əmək və səbir tələb edən çətin mərhələ hesab olunur.

## 5. Digər mülahizələr

Bu yazıda islam iqtisadiyyatının mahiyyəti öyrənilir. Bundan mühümü isə odur ki, yazımız yeni, professional, metodoloji islam düşüncə üsulunun tətbiqini ifadə edir.

Yeri gəlmişkən, məqalədə müraciət olunmuş metodologiyaya qısa şəkildə toxunmaq yaxşı olardı. Bu metodologiya natamam klassik fiqh üsulu metodologiyasından aşkar şəkildə fərqlənir. Klassik fiqh üsulu metodologiyasından adətən islam tədqiqatlarında istifadə olunur. Bu metodologiyaya ictimai elmlərə xas metodlar hakimdir. Bu metodologiya Quran və Sünnənin öyrənilməsi üçün hərtərəfli, analitik və sistemli üsulları özündə birləşdirir. Quran və Sünnə isə islam dünyagörüşü, anlayışlar, prinsip və dəyərlərinin mənbəyi hesab edilir. Bu anlayışlara, əsasən, tövhid, varislik, ədalət və əməkdaşlıq daxildir.

Yazımızın bu hissəsində Peyğəmbər sünnəsinin əsas istiqamətləri Quranın məqsəd və prinsipləri əsasında öyrənilmişdir. Peyğəmbərin sünnəsindəki istiqamətlərdən faydalanmaq istəyiriksə, universal metodologiyadan istifadə etməliyik. Belə olarsa, bəşər cəmiyyətinin zaman və məkan baxımından davamlı şəkildə dəyişən ehtiyaclarına cavab vermək, problemlərini həll etmək mümkün olacaqdır. Şübhə yox ki, sözügedən istiqamətlər islamın məqsədlərini həyata keçirmək üçün keçmişdə Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* və müsəlmanların müraciət etdikləri üsul və yolları bizə izah edəcəkdir.

İndiki dövrdə ictihad etmək üçün başa düşməliyik ki, qiyas[8] və istehsan[9] (qiyas etmək mümkün olmadıqda şəriətin ruhuna qayıtma) üsulları cəmiyyətdə baş verən ayrı-ayrı dəyişiklikləri izah etmək baxımından münasibdir. 14 əsrdir ki, bəşəri üsul və həyat tərzi vasitələri hey dəyişilir. Madam ki belədir, onda tarixi islam mətnləri və irsinin başa düşülməsi, müasir şəraitə tətbiq edilməsi üçün sistemli, analitik, hərtərəfli metodologiyaya ehtiyac vardır. Yeni metodologiyamız və istiqamətləndirici prinsiplərimiz yaşadığımız dövrlə əlaqəli və dinamik olmalıdır. Belə olarsa, müsəlmanların öz cəmiyyətlərini idarə etmələri, dünyada gedən proseslərdə söz sahibi olmaqları mümkün hala gələcəkdir.

[8] Qiyas. Hərf. müqayisə. Ayə və hədislərdə izahını tapmış oxşar məsələlərin müqayisəsini aparmaqla Quran və Sünnədə münasibətin bildirilmədiyi bir məsələ haqqında hökm çıxarmaq – ***tərcüməçinin qeydi.***

[9] İstehsan. Hərf. hər hansı bir şeyi xoş bilmə, xoşa gələni seçmə, bəyənmə, bəyənib seçmə. Bu və ya digər məsələ haqında çıxarılmış hökmlərdən birini asanlıq məqsədilə seçməkdir. Yəni, İstehsan üsulu mövcud dəlillərdən (hökmlərdən) könülə xoş gələnini seçməyi ifadə edir. Bir çox fəqihə görə, istehsan xüsusi iddialarla qiyasdan, ümumi və ənənəvi qaydalardan imtina etməklə vəziyyətin, hadisənin səciyyəviliyinə münasib həll yolu tapmaq deməkdir. İmam Şafeiyə görə, "istehsan" dəlil deyildir. Bununla da o, istehsanı dəlil seçən maliki və hənəfi məzhəblərinin mövqeyini qəbul etməmişdir. O, "istehsan" qaydasına dair tənqidlərini "İbtal əl-istehsan" ("İstehsan"ı təkzib) adlı kitabında toplamışdır. Hənəfilərə görə isə istehsan nəfsi istəyin arxasınca qaçmaq deyildir; istehsan – hökmü bir görüşdən digərinə keçirməkdir; bir məsələ barədə mövcud olan bir-neçə fikirdən birini seçmək; ümumi mənafe və ədaləti əsas tutub münasib görüşə meyl etmək; hökmü bir görüşdən digərinə keçirmək – ***tərcüməçinin qeydi.***

İslama və dəyərlərinə hərtərəfli, bütöv şəkildə yanaşmaqla yazımızda islam irsi ilə müasir dövrün əlaqələndirilməsinə cəhd göstərilib. Biz hədisləri ümumi konyuktura və iqtisadi istiqamətlərin – kursun bir parçası olaraq tədqiq etmişik. Məqsədimiz budur ki, tətbiq edilməyə yararlı, yaxud dəyişdirilməsi mümkün olan və ya müasir tələblərə cavab verməyərək tarixin arxivinə atılacaq iqtisadi istiqamətləri müəyyənləşdirək. Ön sözdə Sünnənin bu tərəfləri haqqında söz açılmış, şərhi verilmişdir. Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* dövrə görə ümmətinin tələbatlarına cavab verən iqtisadi tədbirlərinə dair misallar göstərilmişdir. Məlum oldu ki, həmin dövrdə ən çox tələbat pul iqtisadiyyatına idi. Yazımızdan məlum olmuşdur ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* cəmiyyətin ehtiyac duyduğu qədər qızıl və gümüş təmin etməyə çalışırdı. Onun bu addımı ağıllı addım idi. Qeyd edək ki, qızıl və gümüş puldur, onlardan əmtəə olaraq istifadə etmək olmaz. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* qızıl və gümüşü öz dövrünün yeganə məqbul pul vasitəsinə çevirmək istəyirdi.

Son olaraq, yazımızda məlum metodologiyaya əsaslanaraq müasir cəmiyyət və dünyada islam ictimai-iqtisadi ədalətini necə bərqərar etmək məsələsini izah etməyə cəhd göstərmişik. Dövlət fərdlərin iqtisadi həyatına əsas dəyərləri, xalqın, sistemin maraqlarını qorumaqda olduğu qədər müdaxilə etməməlidir. Belə olarsa, fərdlərin təşəbbüs və yaradıcılığına maneə yaradılmayacaqdır.

Eyni vaxtda, fərdlərin əməkləri və zəhmətlərinin bəhrəsindən istifadə etmələri zəif və imkansız şəxslərin hüquqlarının tapdanmasına səbəb olmamalıdır. Bu insanlar cəmiyyətin bərabərhüquqlu üzvləridir. Məlum

məsələdir ki, bunu vergi sistemi ilə həyata keçirmək olar. Keçmişdə bu, xərac adlanırdı. “Beytülmal” adlanan büdcədə toplanan xərac vergisi xalqın maraqları, müsəlman cəmiyyətinin, xüsusən zəif və yoxsul kimsələrin ehtiyacları üçün xərclənirdi. Xalqın hüquqlarını qorumaq və tələbatlarını təmin etmək üçün vergi sistemindən istifadə etmək fərdlərin işləmək və təşəbbüs göstərmək azadlığına müdaxilə etmədən sosial ədaləti təmin edəcəkdir.

Ümumiyyətlə, aşağıdakı nəticələrə gəlinmişdir:

1. İslam dünyagörüşü və biliklərinin (epistemologiyasının) mənbəyi əsas etibarı ilə vəhy hesab olunur. Vəhy dünya və axirətdə həyatı mənalı və bitkin etmək üçün yol göstərir, istiqamət verir, dəyərləri müəyyənləşdirir, qarşıya məqsədlər qoyur.

2. Quran və Sünnə əsas etibarı ilə eyni səviyyəli deyillər. Həmçinin eyni “zirvə”yə çatmaq onların məqsədi deyildir. Hər birinin öz funksiyası vardır. Quran prinsip etibarı ilə islam dünyagörüşü, prinsip və dəyərlərinin başlıca mənbəyidir. Sünnə isə islam dünyagörüşü və dəyərlərini izah edir, onların tətbiq formalarını göstərir, istiqamətləri müəyyənləşdirir. Bu tətbiq formaları islamın qarşısına qoyulmuş məqsədlərin zaman və məkan baxımından insanların tələbatlarına cavab verəcək şəkildə həyata keçirilməsinin necəliyinə dair misalları ifadə edir.

3. Şeylərin mahiyyətini, insanların vəziyyəti və yaşadıqları mühiti öyrənmək bəşəri biliklərin mənbəyini əmələ gətirir. Bəşəri-elmi biliklər sayəsində dünyagörüşü, dəyər və maraqlar reallığa çevrilir, dinamik və uğurlu sistem yaradır.

4. Vəhy olmadan insan həyatın mənasını anlaya, həyatda düzgün yaşaya bilməz. Həmçinin elmi-bəşəri biliklər olmadan vəhyin təlimləri nəzəri-fəlsəfi səciyyə daşıyacaq, çox vaxt düzgün başa düşülməyən ədəbi kəlam rolunu oynayacaqdır. Vəhyi səmərəli və real edən məhz bəşəri-elmi biliklərdir.

5. Müsəlmanların həm vəhyə, həm də bəşəri biliklərə – elmlərə ehtiyacı vardır. Vəhyi biliklərin vəzifəsi universal və bütöv təlimi – həyat istiqamətini təmin etməkdir. Bəşəri biliklər isə insana bütöv, real və doğru dünyagörüşünə nail olmaq üçün vasitələr təqdim edir. Bu vasitələr hərtərəfli, sistemli və analitik olmalıdır. Təbii ki, bu vasitələr bir bilik sahəsindən digərinə dəyişməlidir.

6. Mahiyyəti, bacarıqları, zehni vəziyyəti, cəmiyyət və fərdlərin ehtiyaclarını başa düşmədə zaman və məkan amilinin mühüm rolu vardır. Bu səbəbdən müsəlman alimləri Sünnəni hərtərəfli şəkildə tətbiq etmək üçün zaman və məkan amilini nəzərə almalı, yəni müəyyən dövrdə istiqamət və kurs olaraq seçilmiş məsələləri diqqətdən qaçırmamalıdırlar. Bunun üçün onlar mövcud bəşəri bilikləri ən yaxşı şəkildə mənimsəməlidirlər. Bu yolla biz islam dünyagörüşünü və bu dində qarşıya qoyulmuş məqsədləri, müasir ehtimalları ən doğru şəkildə başa düşəcəyik. Bu vasitələrlə praktik müsəlman ictimai sistemi ümumbəşəri mədəniyyətdə mütərəqqi yer tutacaqdır.

Metodologiya sahəsində ideya və nəticələri aşağıdakı kimi xülasə etmək olar:

1. İslamda insanın həqiqi mahiyyəti mövzusuna tədqiqatlar çərçivəsində toxunur. İlahi kəlamı və yolgöstərənliyini düzgün başa düşmək üçün insanın

mahiyyəti və sosial aləmi öyrənmək şərtdir. Zaman və məkan amilinə etinasız yanaşmaq doğru olmayıb, islam iqtisadiyyatının düzgün başa düşülməsi və tətbiqinə əngəl yaradır.

2. İslam iqtisadi sistemi və islam həyat tərzinin ədalət bazisi insanın yer üzündəki varisliyi – "xəlifəliy"i anlayışına əsaslanır.

3. Varislik anlayışına görə, insan təbiəti insan oğlunu özünü inkişaf etdirməyə, fərdi və kollektiv maraqlar arasında balans yaratmağa təşviq edir, ona bu işdə kömək edir. İslam insanları öz maraqları arxasınca qaçmağa həvəsləndirir. Cəmiyyətin bu və ya digər üzvü öz əməyinin səmərəsini görən ilk şəxs olmalıdır. İnsanın əmək və zəhməti hesabına istehsal etdiyi hər şey həm işləyənə, həm də cəmiyyətin digər üzvlərinə bərabər şəkildə aiddir. Bir insan istehsal etdiyinin bir hissəsini istifadə etsinlər deyə cəmiyyətin yoxsul və möhtac üzvlərinə verirsə, mərhəmət təzahür etmişdir.

4. Cəmiyyətin imkanlı-imkansız, güclü-zəif bütün üzvləri Allahın bəxş etdiyi təbii resurslarda bərabər hüquqa sahibdirlər. Bu resursların səmərəsindən onların hər birinə ədalətli pay düşməlidir.

Təlatümlərin baş verdiyi bu dövrdə bəşər mədəniyyətinin böhran keçirdiyini, daha üstün dünyagörüşünə, daha təhlükəsiz istiqamətə ehtiyacının olduğunu müsəlmanların başa düşməsi çox mühümdür. Müsəlmanlar və müsəlman iqtisadçılar düşüncələrini yenidən nəzərdən keçirməli, kapitalist iqtisadiyyatı sistemi ilə əlaqəli boş və xırda-para məsələləri müzakirə etməkdən əl çəkməlidirlər. Onlar hüquqi çərçivələri adlayıb, islam banklarının hüquqi çərçivədə fəaliyyətinə keçməlidirlər. Onlar məsələlərə hərtərəfli yanaşmalı,

islam iqtisadiyyatının hədəflərinin həyata keçirilməsi üçün münasib olan əməli islam metodologiyasından istifadə etməklə yenidən tədqiqatlar aparmalı, polemikalara girişməlidirlər.

Müsəlmanlar islam baxımından balanslaşdırılmış həyata yaxın olmalıdırlar. Hər kəs insandır, eyni kökdəndir, kişi və qadın olaraq yaradılmışdır, rəngi, dili, mədəniyyəti fərqlidir.

Biz başa düşməli və fərqində olmalıyıq ki, müsəlman iqtisadiyyatı qarışmama (laissez-faire) iqtisadiyyatı deyildir. Müsəlmanlar beynəlxalq kapitalist iqtisadi kurslarını kor-koranə yamsılamamalıdırlar. Çünki bu iqtisadi kurslar xarici kapitalizm maraqlarına xidmət edir. Müsəlmanlar öz mühitləri və mənafeləri ilə maraqlanmalıdırlar. Mövcud fikri, mədəni vəziyyət və düşdükləri sınaqlar zəruri edir ki, Müsəlman dünyasında islahatlar aparılsın. İndiki dövrdə onlar məğlub olub itirməməlidirlər! Təshih edilmiş ideyalar müsəlmanlara üz-üzə gəldikləri problemləri həll etmək üçün ən münasib yollar təqdim edəcəkdir. Doğru şəkildə islahatların aparıldığı müsəlman ictimai sistemi və islam mədəniyyəti təkcə müsəlmanlara deyil, həm də müasir dünyaya mütərəqqi istiqamət göstərəcəkdir.

İslam din və dünyagörüşüdür: tövhidə, varisliyə, abadlaşdırma işinə, bütövlüyə, sülhə, ədalətə, mötədilliyə, mərhəmət və balanslaşdırmaya əsaslanır. Müsəlmanların cəsarətli islahatçı addımların atılmasına, fikri-metodoloji və mədəni islah işinə ciddi şəkildə ehtiyacları vardır. Məhz bunun sayəsində onlar kölə, asılılıq, kor

təqlid zehniyyətindən xilas ola bilərlər. Düzgün islam tərbiyəsi və təhsili yeni nəsillər formalaşdıracaqdır. Elmi təfəkkürə sahib, məsuliyyətli və cəsur nəsillər!

Sonda, müəllif bu yazı ilə əlaqəli istənilən müzakirə və mülahizəni, tənqidi qeydləri qəbul etməyə hazır olduğunu bildirir. Çünki yaradıcı və tənqidi müzakirə yeni və mütərəqqi ideyaların doğmasında başlıca rol oynayır.

Qeyd: bu məqalənin birinci hissəsində qarşılıqlı təminat və ya dövlət təminatı ilə sığortalanmış kreditlərin legitimliyini təsdiqləyən hədis göstərilmişdir.

Əbu Hüreyrəyə istinadən İmam Buxari və İmam Müslim demişlər:

“Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurmuşdur: “Elə bir mömin yoxdur ki, məni dünya və axirətdə hər şeydən üstün və özünə yaxın bilməsin. Bir mömin ölüb özündən sonra var-dövlət qoyub-gedərsə, nəslindəkilər ona varis olsunlar. Amma borclu ikən ölən və borcunu ödəyəcək qədər var-dövlət qoyub-getməyən mömini yanıma gətirin. Çünki mən onun böyüyüyəm”[10].

[10] Yəni, bir insan borclu ikən ölmüş və özündən sonra bu borcu ödəyəcək var-dövlət qoyub getməmişsə, Peyğəmbər onun əvəzinə borcu ödəyəcəkdir – ***tərcüməçinin qeydi.***

CBS POLYGRAPHIC PRODUCTION

mətbəəsində çap olunub



*Əbdülhəmid Əhməd əbu Süleyman*

- Əbdülhəmid Əhməd əbu Süleyman 1936-cı ildə Məkkə şəhərində anadan olmuşdur.
- Orta məktəbi bitirdikdən sonra, 1959-cu ildə Qahirə universitetinin İqtisadiyyat fakültəsinə qəbul olunmuşdur.
- 1973-cü ildə ABŞ-ın Pensilvaniya universitetində "Beynəlxalq münasibətlər" ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.
- Bir müddət Səudiyyə Ərəbistanında, Kral Məhəmməd ibn Səud adına Mədinə İslam Universitetində fakültə dekanı vəzifəsində işləmişdir.
- 1988-1999-cu illərdə Malayziya Beynəlxalq İslam Universitetinin rektoru olmuşdur.
- 1999-cu ildən ABŞ-dakı Beynəlxalq İslam Fikri İnstitutunun direktorudur.
- ABŞ və Kanada Müsəlman Tələbələri İttifaqının yaradıcılarından biridir.
- Professor Əbdülhəmid Əhməd əbu Süleyman sosiologiya, hüquq və islam düşüncəsində novatorluq üzrə çoxsaylı kitabların, monoqrafiya və məqalələrin müəllifidir.

Əsərləri:

- İslam iqtisadiyyatı nəzəriyyəsi: fəlsəfi və müasir metodlar
- Müsəlmanın düşüncə böhranı
- İslam maarifçiliyi: layihələr və nailiyyətlər
- İslam düşüncəsində metod problemi
- Müsəlman ailənin biblioqrafik məlumat kitabı
- Müsəlmanın iradə və mənəviyyat böhranı
- Müsəlman dünyasında ali təhsil sisteminin canlandırılması
- İki şəriət prizmasından insana baxış və s.

İDRAK